Şərq Qonşuluğunda AB-nin qabarıq yumşaq güc təsiri və Azərbaycan: demokratiyaya köməyin süqutu və ya maraqların qovuşması?

Leyla Əliyeva

MILLI və BEYNƏLXALQ ARAŞDIRMALAR MƏRKƏZİ

MBAM
BAKI, 2016

MILLI və BEYNƏLXALQ ARAŞDIRMALAR MƏRKƏZİ

Şərq Qonşuluğunda AB-nin qabarıq yumşaq güc təsiri və Azərbaycan: demokratiyaya köməyin süqutu və ya maraqların qovuşması?

Leyla Əliyeva

Giriş

AB-nin genişlənməsindən sonra və qonşuluqla bağlı iki cür siyasətin,AQS və ŞT-nın qəbul edilməsi ilə AB-nin dəyişdirici gücü haqqında debatlar intensivləşmişdir. Bu mövzunun aktuallığı, Şərq Tərəfdaşlıq proqramının başlanmasından 6 ilə qədər vaxt keçəndən sonra tərəfdaşların iki qrupa bölünməsi ilə, Assosiativlik Müqaviləsini imzalayan və imzalamayan ölkələrlə,hətta daha dərinləşmişdir. Bütövlükdə, AQS-nin uğur qazanmasının böyük sual altında olması qiymətləndirilir (Borzel,2011). Bu hal AB-nin dəyişdirici gücünün ardıcıl olaraq uğur qazana bilməməsini və AB-nin rəsmi siyasətlərinin və yardım proqramlarının tərkib hissəsi olan,sıx qarşılıqlı əlaqədən yararlanan və Şərq Qonşuluğunda yerləşən dövlətlərdə pisləşən demokratiya göstəricilərini izah etməyə ehtiyac yaradır. Azərbaycanda insan hüquqlarının pozulması ilə bağlı Qərb dövlətlərinin tənqidlərinə verilən rəsmi cavablar,məsələn, bu pozuntuların rəhbərlik tərəfindən kompromissiz olaraq inkar edilməsi,təzyiqə qarşı immunitetin olduğunu nümayiş etdirir. Rəmzi haldır ki, Azərbaycanda mülki cəmiyyətlər,media və Qərb fondlarına və təsisatlarına qarşı ən pis hücumlar ölkənin Avropa Şurasının sədr olduğu dövrlərə təsadüf edir. Əsil inteqrasiyanın demokratikləşməyə və daxili və xarici amillərin qarşılıqlı əlaqəsinə necə təsir etdiyini qiymətləndirən elmi işlərin çatışmamazlığı vardır.

AB-nin öz qonşuluğunda apardığı siyasətin qabarıq nəticələrinin mənbələrdə ifadə olunan izahedici amilləri fərqlidir. Genişlənmə dalğası ilə müqayisə aparsaq, ölkə üçün üzvlük perspektivinin olmaması, çox zaman AQS və ŞT-a inteqrasiya istiqamətində AB-nin dəyişdirici gücünün zəifləməsində həlledici rol oynadığı qeyd olunur(Vachudova, 2005; Magen, 2006; Schimmelfennig & Scholtz, 2008; Maier & Schimmelfenig, 2007). Lakin bir çox tədqiqatlar demokratik idarəçilik inkişafının mümkünlüyünü Birliyə qoşulma şərtlərindən kənarda görürlər və qeyd edirlər ki,təsisat amillərinin təsiri az liberallaşmış və az motivasiyalı tərəfdaşlar halında məhduddur(Freyburq et al, 2009).AB-nin öz qonşuluğunda olan ölkələrlə münasibətlərinin qeyri-müəyyənliyi AB-i ilə bağlı amillərlə izah edilir,məsələn,subyektlər arasında birliyin olmaması və ya AB üzvləri arasında konsensusun olması ilə(Balfour & Missiroli, 2007; Bosse, 2007; Youngs 2009), "aşağıdan yuxarı"(Junemann,2007) və ya yuxarıdan aşağı yanaşmalar arasında ardıcıllığın olmaması ilə və ya vasitələrin tətbiqi ilə. Qeyri-ardıcıllıq,AB siyasətinin aşağı

səviyyəli səmərəliliyinin amili kimi məqsədlərin münaqişəli təbiətinə -səmərəli və demokratik idarəçiliyin təşviq edilməsinə də uzanmışdır.(Borzel et al,2014).

Digər tədqiqatlar, mövcud yanaşmaların yenidən gözdən keçirilməsinə çağırır və onalr AB ilə əlaqədar dəyişənləri diqqət mərkəzinə çevirir və iddia edir ki.kənar idarəçilik nümunəsinin tərəfdaşın rəhbərliyi tərəfindən qəbul edilməsi regional kontekstdən və onun ölkə daxilində necə başa gəlməsindən asılıdır.(Delcour,Volzchuk2015).

İlkin tədqiqatlar göstərdi ki,rəhbərlik liberalizasiyaya yaxınlaşan və nəticədə liberalizasiyaya keçən islahatları yox,özünün hakimiyyətini gücləndirə bilən istədiyi islahatları seçəcək. Çox zaman təkmilləşmiş inzibati bacarıq heç də daha geniş demokratiyaya aparmır, əksinə əks təsirə malik olur(Bunce & Wolchik, 2011; Freyburq, 2012).

Ancaq, AB-nin demokratiyanın inkişafı ilə bağlı işləri haqqında aparılan tədqiqat onun səmərəliliyinə təsir edən əlavə amillərin analizini əhatə etmir və ya kənar kontekstdə, məsələn AB-nin Rusiyadakı başqa maraqlarının analizini vermir (Panchuk & Bossuyt, 2014).

Eyni zamanda, AB-nin iqtisadi maraqları demokratiyanın inkişafı üçün AB-nin roluna birbaşa təsir edir. Tədqiqatlar göstərir ki, AB-nin əks iqtisadi maraqları ardıcıl olaraq funksional sector əməkdaşlığı vasitəsilə və funksional sector səviyyəsində demokratik idarəçiliyin inkişaf etdirilməsinə köməyə mane olur(Wetzel, 2011).

"Asimmetrik praqmatizm" kimi AB-Rusiya münasibətləri, AB-nin demokratikləşmə təsirinin aşağı səviyyədə səmərəliliyinin arxasında duran mümkün səbəbləri və bir sıra qonşuların islahat formalarının qəbul edilməsinə müqavimətini izah etməyə daha uyğundur. Bu normativ yanaşma hesabına, iqtisadi mülahizələrin xeyrinə olaraq AB münasibətlərinin cürbəcür gündəmlərinin qarşılıqlı əlaqələrinin təsirini nümayış etdirir(Hughes,2006).

Daha geniş kontekstdə, AB-nin qonşuluqda apardığı siyasətin nəticəsi "qarşılıqlı əlaqə və təsir" konseptual çərçivəsinə qoyulduqda (Way & Levitsky tərəfindən inkişaf etdirildiyi kimi, 2014), bu iki mexanizmin strukturlu təbiətli olduğu yox, dərin təsirli təbiətli olduğu görünür. Müəlliflər, Avropanın demokratikləşmə təsirinin nəticəsini müəyyən etmək üçün iki amili nəzərdən keçirirlər-**təsir** (nisbi güc) və **qarşılıqlı əlaqəni**(Avropanı və qonşuluqdakı uyğun ölkəni birləşdirən). Coğrafi yaxınlıq və mədəniyyətlə müəyyən edilən bu əlaqələr struktur amillər kimi gözdən keçirilir. Lakin,struktur dəyişənlərinin nəzərə alınması Avropaya yaxın olan

ölkələrin,məsələn,Belarusun niyə demokratikləşməməsini izah etməyə kifayət etmir,eyni zamanda başqa ölkələrdə isə,məsələn,Gürcüstanda isə edir. NATO və AB üzvlüyü səylərində ifadə olunan kimlik amili(Nodia,2014),AB qonşuluğunda transformasiyanın uğurunu və uğursuzluğunu izah edən ən mühüm dəyişən kimi qeyd olunur. Digər tərəfdə beynəlxalq diffuziya tədqiqatları vardır və omlar yerli şərtlərə daha yaxşı köklənmiş hallarda demokratiyanın inkişafının uğurunu sübut edir və o diffuziyada demokratiya yardımının vacib olduğunu hesab edir,lakin daxili amillərlə müqayisədə demokratiya yardımının qəti amil olmadığı qənaətinə gəlir(Bunce, Wolchik 2006).

Bu yazı hesab edir ki,AB-nin demokratikləşmə təsiri onun yardım siyasətləri və proqramları vasitəsilə sadəçə qismən ötürülür və o Avropa siyasətinin və beynəlxalq münasibətlərin geniş kontekstinin güclü təsirinə məruz qalır,eyni zamanda "qarşılıqlı əlaqə və təsir vasitəsi" mexanizmləri –tərəfdaşların maraqlarının qarşılıqlı əlaqəsi ilə olur və onlar özlərini həm strategiya səviyyəsində və həm də demokratiya sahəsində-insan hüquqları və liberal azadlıqlar sahəsində göstərir.

Bu yazı üçün nümunə olaraq Azərbaycan seçilmişdir və ŞT proqramında daha çox bir anomaliya kimi seçilir.İqtisadi sahədə AB-i ilə özünün ən yüksək səviyyədə və daha sıx əlaqələri ilə AQS-nin 10-cu və ŞT proqramının 6-cı ilində Azərbaycan demokratiya,insan hüqquları və liberal azadlıqlar sahəsində ciddi geriləmələr etmişdir.

Aşağıdakı analizlər göstərir ki, AB-nin Azərbaycanla bağlı maraqlarından doğan xarici siyasət prioritetlərinin birbaşa təsirləri,məsələn,islahatlara fərdi maneələrin aradan qaldırılması ilə bağlı AB-nin uğursuzluğu və şərtilik prinsipinin tətbiq edilə bilinməməsi sadəcə demokratiyanın azalmasına səbəb olmamışdır. Bundan az olmayan, daha da əhəmiyyətli təsir AQS və ŞT çərçivələrindən kənarda baş verən qarşılıqlı təsir olmuşdur,məsələn,mülki cəmiyyətlərə uzun müddətli və fərdi olaraq hazırlanmış birbaşa dəstəyin olmaması, norma və gözləntilərin aşağı salınmış standardları,seçkilərin və ölkədəki demokratiyanın vəziyyətinin qiymətləndirilməsində pozulmuş dürüstlük bu qəbildəndir. AB-nin sonuncu göstərilən zəifləmiş imkanları Avropa dəyərləri və təsisatlarına inam üzərində qurulmuş ilhamverici model rolu oynayır. Bu vəziyyət demokratiyaya kömək edən təşkilat kimi AB ilə, kömək alan Azərbaycan arasındakı münasibətlərin dəyişməsinin nəticəsidir və AB təsir vasitəsinin zəifləməsidir. AB "təsir vasitəsi" dəyər –daşımayan gündəmin təsirinə məruz qalır və Rusiya kimi regional güclərlə geosiyasi rəqabətdə güclənir,resurslarla zəngin ölkənin avtoritar rəhbərliyi isə öz növbəsində böyük oyunçuların "qeydsiz-şərtsiz sevgisindən" qazanır. Lakin həmən bu gündəmlər,zəifləyən "təsir vasitəsindən" başqa, həm də AB ilə tərəfdaşı arasındakı "qarşılıqlı əlaqəyə" təsir edir və bu konsepsiyanın müəllifləri tərəfindən struktur və ya

coğrafi kimi nəzərdən keçirilir. Bu tədqiqat, AB-nin Şərq qonşuluğunda sabitləşdirici güçünü yox,Azərbaycanın timsalında onun dəyişdirici güc kimi aşağı səviyyəli səmərəliliyinin arxasında duran amilləri öyrənəcək.

AB Demokratiyanın İnkişafı üçün Kənar Amil Kimi

AB-nin qonşularının inteqrasiya davranış nümunələri təkcə AB tərəfindən verilən stimullarla izah edilmir və idarə olunmur.AB-nin Şərq Tərəfdaşlıq Siyasətinin tərəfdaş ölkələrdə dəyişikliyi motivasiya edən sadəcə zəif stimulu olduğu arqumentinin əksinə olaraq,Ermənistanın üzvlük perspektivinin olmadığı halda bir çox sahələrdə fəal islahat aparması yerli və bölgəsəl-əsaslı amillərlə izah edilir(Delcour,Üolzcuk,2014).

Lakin bu izahat rəhbərliyin mövqeyi arxasında duran motivasiya amilləri ilə əlaqədardır.Faktiki olaraq, bu yanaşma potensial fəaliyyətləri, maraqları və mövqeləri olan inteqrasiya nümunələrini çoxalda bilən və zaman geçdikcə ona təsir edə bilən geniş məcralı subyektləri kənara qoyur. Bundan başqa, post sovet avtoritar liderlərin öz maraqları ilə məhdulaşan islahatlar seçmə xarakter daşıyır və ən yaxşı halda səhti islahatlardir və AB strukturlarına daha dərin inteqrasiyaya təminat vermir. Texniki xarakterli seçmə islahatların həyata keçirilməsi əslində, yenilənmiş avtoritarizm adı kimi ifadə olunan, daha geniş siyasi əks təsir verə bilir. Bu post-sovet avtoritarları tərəfindən öz hakimiyyətlərini uzatmaqdan ötrü islahatları öz maraqlarına uyğunlaşdırmaq üçün daha müasir yolu göstərir.

Müəyyən xarici subyektlərlə qarşılıqlı əlaqəni və ya əlaqələri müəyyən edən siyasət daxili şəraitlərlə müəyyən olunur,nəinki sadəcə geosiyasi və ya mədəniyyət şərtləri ilə(Toltrup,2014). Burada **gözətçi** konsepsiyası demokratiyanın inkişafında yerli şərtlər adlandırılan şərtlər arasından daha dəqiq müəyyənedici amilləri ayırd etməyə kömək edir Toltrup-a görə, **gözətçilər kənar subyektlə əlaqələrin sıxlığını** müəyyən edir. Hər bir növ elitanın qərarının arxasındakı strateji hesablamalar və onların nisbi təsir etmə imkanları "daxili siyasi itkilər" və "kənar alternativlə" birlikdə, rejimin növü ən mühüm olmaqla, müəyyən daxili şərtlərlə müəyyən edilir (Way, Levitsky, Toltrup). Toltrup-un məsələni qoyduğu kimi " müxtəlif rəylərin olduğu ölkələrdəki gözətçilər manevr üçün daha böyük imkanlara malikdir"

Bu kimi yazılar onu göstərir ki, sıx əlaqəli şəbəkə demokratiyanın inkişafının uğuru üçün həlledicidir, lakin onlar həmçinin qəbul edirlər ki,avtoritar rejimlərlə sıx əlaqələri

genişləndirmək çox zaman səmərəsiz olmuşdur: ona görə də ən mühüm məqsəd insanların demokratik islahatlar üçün ürəklərini qazanmaqdır. Bu əldə olunan nəticələrin zəif tərəfi ondadır ki,onlar belə fərz edirlər ki,AB-nin maraqları və onun demokratiyanın inkişafına bağlılıq dərəcəsi müstəqil dəyişəndir və fərqli ölkələr üçün dəyişməz qalır. Baxmayaraq ki, bu fərziyyə analiz məqsədilə daxili amili tapıb izolyasiya etməyə kömək edə bilər,lakin o AB-nin rəsmi siyasətlər və proqramlardan kənar nüfuzunun və rolunun olduğu faktına fikir vermir və onun demokratiyanın inkişafına bağlılıq dərəcəsi tam bir sıra şərtlərlə müəyyən olunur,o cümlədən,onun tərəfdaşlarla münasibətinə başqa prioritetlər, onun əlverişli şərtlərlə müqavilə imzalamaq üçün üstün hüquqları,təsir etmə alətlərinin olması,bu alətləri tətbiq etmə hazırlığı da təsir edir. Sonda,AB maraqları ilə şərtlənən,qarşılıqlı əlaqələrin təbiəti və ölçüləri bu münasibətlərin sıxlığından daha böyük rol oynayır. Bu həm də Şərq Assosiasiya Proqramının inteqrasiya göztəricilərinin illik araşdırmalarının məlumat bazası ilə təsdiq olunur -inteqrasiya göstəriciləri üzrə ölkə boyu sorğuları ilə: qarşılıqlı əlaqələr, yaxınlaşma və AB inteqrasiya prosesi ilə. Azərbaycan demokratiya və insan hüquqları üzrə Belarusdan sonra digər dörd üzv ilə müqayisədə ən aşağı qarşılıqlı əlaqə dərəcəsinə malikdir. **Qarşılıqlı əlaqənin özü burada əsas deyil, demokratiyanın inkişafı üçün bu əlaqələrin məzmunu və istiqaməti vacibdir[1].**

Demokratiyanın inkişafına təhdidlərlə bağlı son yazılarda, müəlliflər çoxqütblü dünya amilini və regional gücləri də -**pozucuları**,məsələn Rusiyanı da daxil edirlər və onların nüfuz etmə təsirləri Qərbin dəyərlə-hərəkət edən siyasətlərinə qarşıdır. Ola bilər ki Rusiya amili, avtoritarizmə birbaşa olaraq təsir etmir,lakin AB-ə kənar alternativ kimi avtokratların manevr fəzasının genişlənməsinə dolayısı ilə təsir edir.

Ancaq kənar alternativlərin geosiyasi rəqabətdə rolu adi gözləntilərin əksinə də ola bilər. Rusiya təzyiq göstərməklə hər hansı dövləti mərkəzəqaçma siyasəti aparmağa səbəb ola bilər və 90-cı illərin başlanğıcında belə olmuşdur və ya Ukraynada olduğu kimi daha geniş siyasi açılımlı daxili dəyişikliyə gətirə bilər (Delcoure, Wolzcek, 2015). Əksi də doğrudur-geosiyasi maraqlara və enerji kimi alternativ gündəmə görə, AB siyasəti öz gündəmində demokratiyaya dəstəyi bəyan etsə də status quo-nun davam etməsinə təsir edə bilər Belə olan halda,kənar geosiyasi yarış avtokrat mövqeyini gücləndirmək təsiri ilə ikiqat arta bilər.

Neftlə zəngin Azərbaycan üçün,Rusiya kimi alternativ gücün olması ölkənin xarici siyasətinin manevr imkanlarını artırmışdır.Qərb dövlətləri Azərbaycanın Rusiyaya itirilməsi haqqında qorxularını heç bir zaman dilə gətirməsələr də, Qərb insan hüquqları

[1] Şərq Tərəfdaşlıq Ölkələri üçün Avropa İnteqrasiya İndeksi 2014, Eastern Partnership Civil Society Forum, International Renaissance Foundation, Open Society European Policy Institute, PASOS, February 2015.

və ya demokratiya ilə bağlı məsələləri qaldırdıqda,müstəqil ekspertlər Azərbaycanın Rusiyaya döğru istiqamətini qeyd edirlər.Digər tərəfdən, heç kimin bir söz deyə bilmədiyi regional dövlətin qəbul edilən güçü,xüsusilə də,Ukrayanda bu güc nümayiş etdiriləndən sonra,Azərbaycanı Rusiyanın maraqlarına daha da həssas yanaşmağa sövq etmişdir. Ukrayna müharibəsindən sonra, Rusiyanın qəbul edilən artan güçü,ilk növbədə ABŞ-ın bu inqilablarda birbaşa rolu ilə bağlı şübhələrlə və bu inqilabların Azərbaycan sərhədlərinə daha da yaxınlaşması daha da güclənmişdir.Kiyevdəki AvroMaydan-dan sonra Azərbaycanda daxili güc toparlanması Rusiya və Türkmənistanda olduğundan hətta daha da sürətlə getmişdir.Hüquqi maddələr qəbul etməklə yerli QHT-lərin xaricdən maliyyələşdirilməsi imkanları praktiki olaraq ləğv edilmişdir. Son zamanlarda,bir Azərbaycan parlament üzvü boynuna almışdır ki, Azərbaycan AB-i ilə Assosiasiya Sazişini Rusiya ilə münasibətləri pozmamaq üçün imzalamamışdır. O bildirmişdir ki, Azərbaycan Qərbin kuklası deyil- Azərbaycan Rusiyaya qarşı AB-nin sanksiyasına qoşulmadığına görə Qərb bizə təzyiq edir[2].

Enerji maraqlarına görə,AB-Azərbaycan münasibətlərində AB-nin təsir etmə amili zəifləyir və beləliklə demokratiya inkişafı siyasəti ikitərəfli sövdələşmə prosesinə çevrilir,dəyər və prinsipləri sövdələşmə alətlərinə çevirir. Balanslayıcı hərəkət Azərbaycanın strateji məhsulları və əhəmiyyətinə görə mümkün olmuşdur və hökümət də bu amillərdən özünün xarici siyasətində geniş şəkildə istifadə etmişdir.

AB –nin genişlənməsinin məqsədləri nisbətən aydın olsa da,Avropa Qonşuluq Siyasətinin və xüsusilə də Avropa Şərq Tərəfdaşlığının məqsədləri geniş formada müzakirə olunur.

AQS, 2004-cü ildə Avropanın Cənub və Şərq qonşuluğuna insan hüquqları,qanun aliliyi,yaxşı idarəçilik,bazar iqtisadiyyatı prinsipləri və davamlı inkişaf kimi paylaşan dəyərlər əsasında imtiyazlı münasibət kimi təklif edilmişdir. Lakin son zamanlar aparılmış sorğu göstərmişdir ki, Şərqi Avropadakı maraqlı tərəflərin və ŞT üzvlərinin 37%-i bu qurumun AB-nin geosiyasi layihəsi olduğunu saymışdır[3].

Orada həmçinin AŞT-nın böyük dərəcədə texnokrtaik layihə olduğunun arxasında inandırıcı loqika vardır,o mənada ki, o əsasən yaxşı idarəçilik məsələlərinə fokuslanır.(Hug,2015). Lakin,Vilnüs sammiti ərəfəsində baş verən hadisələr bunları dəyişdirdi "geniş texnokratik işdən Avropa ilə Rusiya arasında geosiyasi mübahisə xəttinə çevirdi"(Hug,2015,p.4)

[2]Azay Guliyev: Baku refused EU Association Agreement for the sake of Russia.26.10.2015, Minval.az news portal http://minval.az/news/123505574

[3] "Important, Forgotten or Irrelevant? Stakeholders Survey on Post-Vilnius Eastern Partnership" Project AMO, International Visegrad Foundation, 2014. trendy2015.amo.cz/

Hətta AB-nin əsil demokratiya inkişaf etdirmək niyyəti baxımından,həqiqi təsir və gündəmdəki məsələnin praktikaya çevrilməsi həddən artıq mürəkkəb vəzifə kimi görünür. AB-nin Aralıq dənizi və Şərqi Asiyada apardığı siyasətin analizi əsasında meydana gələn fərqli yanaşma, idarəçilik və adi adamlar səviyyəsində(təsisat səviyyəsində yox) edilən demokratiya yardımlarının birləşməsidir (Youngs, 2001). Amma,müəllifin fikrincə,məsələnin idarəçilik tərəfinə edilən demokratik yardım onun siyasi islahatlar səviyyəsinə də keçməsinə təminat vermir.

Demokratiya tədqiqatları ədəbiyyatında,mane olan gündəmlər-məsələn,enerji və ya təhlükəsizlik maraqları demokratiyanın inkişafı üçün maneələr kimi qəbul olunur. Beynəlxalq diffuziya prosesində,bu cür hallarda kənar subyektlərin reaksiyası müxtəlif ola bilər. Məsələn,AB nümayəndələri və ya Brüsseldən gələn rəsmilər illər ərzində Azərbaycanda, Ermənistan və Gürcüstandan fərqli olaraq hökuməti qıcıqlandırmamaq qorxusu ilə müxalifətlə və ya müəyyən QHT-lərlə görüşmürdülər.

Alternativ gündəliklərin təsirləri həm Ukraynada,Qərbin "Rusiya birincidir" siyasəti ilə (Solonenko,2009) və həm də Azərbaycanda nümayiş etdirildi və burada hətta daxili təsisatların qurulmasına kənar subyektlərin enerji ilə bağlı prioritetləri də təsir etmişdir(Aliyeva, 2006, Gahramanova, 2012).

AB inteqrasiyasında "motivasiyası olmayan" dövlətlərin mühüm ümumi təsisatları

Assosiasiya Sazişini imzalamaqdan imtina edən "ayağını çəkən" ölkələrin-Azərbaycan, Ermənistan və Belarusun əsas arqumentlərinin geosiyasi amillərlə,məsələn Rusiyanın təzyiqi ilə bağlı olmasına baxmayaraq,onlarım daxili siyasətlərindəki ümumi çalarları da qulaqardına vurmaq çətindir. Beynəlxalq təşkilatların,məsələn,Freedom House-ın müəyyən etdikləri reytinqlərdə bu ölkələrin demokratiya göstəriciləri inteqrasiyaya irəlidə gedən ölkələrlə Gürcüstan,Moldova və Ukrayna ilə müqayisədə bütün azadlıqlar üzrə daha aşağı səviyyədədir. Daha əhəmiyyətlisi odur ki,onlarda reytinq artımı olsa da çox az görünür və bir çox hallarda isə,AQS imzalanandan bəri göstəricilər **geriləmə** ilə xarakterizə olunur. Beləliklə,AB islahat paketini qəbul etməyə müqvimət göstərməklə ifadə olunan, AB inteqrasiyasına "motivasiyanın olmaması", birbaşa olaraq bu ölkələr qrupu içərisində demokratik islahatlara getməyə razılığın olmaması ilə əlaqədardır.

"Ayağını çəkən" ölkələr qrupu arasında demokratiya balları irəlidə gedən ölkələrin göstəricilərindən aşağıdır, ancaq müəyyən dərəcədə. Bu ölkələrdən ikisi –Belarus və Azərbaycan "azad deyil",Ermənistan isə "qismən azaddır" siyahısındadır. Lakin bu öç ölkədə,aydın şəkildə ümumi xarakter daşıyan əlamət "kök salmış" rəhbərlikdir. Bü üç ölkədə aparılan seçkilər, siyasi rəhbərliyi ən azı on illiyinə dəyişmir və ya o dəyişsə də, saxta seçkilər vasitəsilə edir.Son on il ərzində, AB inteqrasiyasına irəlidə gedən ölkələrlə müqayisədə,bu ölkələrdə seçkilər mühüm dərəcədə pozuntular və fırıldaqla müşaiyət olunmuşdur və bir çox hallarda, 2008 Mart seçkilərindən sonra Ermənistanda olduğu kimi etirazlar tayı-bərabəri olmayan dövlət zorakılığı ilə müşaiyət olunmuşdur və ya xüsusilə 2003-cü ildə Azərbaycanda saxtalaşmış seçkilərə qarşı etiraz edənlərə davamlı repressiyalar tətbiq edilimişdir. Əksinə,Moldovada hakimiyyət dəyişikliyi azad və ədalətli seçkilər vasitəsilə bir dəfəmlik rəhbərliyə gətirmiş və ya Gürcüstan və Ukraynada baş verən "rəngli" inqilablar siyasi sistemlərin açılımına və AB ilə dərin inteqrasiyaya gətirmişdir.2000-ci illərin əvvəlində Gürcüstanda və Ukraynada baş verən rəngli inqilablar həlledici sovet mirası olan –idarə olunan və saxtalaşmış seçkiləri- dəf edən "cəmiyyət və dövlət" balansının əhəmiyyətini nümayiş etdirdi.

Ancaq,kök salmış rəhbərlik həm saxta seçkilər vasitəsilə və həm də "hamar olmayan oyun meydanı" (Levitsky, Way, 2012) vasitəsilə bir tərəfdən hakimiyyətdə olanların və digər tərəfdən müxalifətin ömrünü uzada bilər. İkisi də bir-birini gücləndirir və hətta İlham Əliyevin seçilməsi halında olduğu kimi, müxalifətin 2013-ə qədər getdikcə daralan oyun meydanı ilə bərabər saxtalaşmanın dərəcəsi də geniş olaraq davam etmişdir. Bu cür hamar olmayan oyun meydanının mənbələrindən biri neftdir , neftlə zəngin olan belə ölkələrdə hökümət həm maddi və həm də cəmiyyət resursları üzərində monopoliyaya malikdir. Lakin bir çox hallarda,hamar olmayan oyun meydanları Qərb yardımları vasitəsilə müxalifətə,mülki cəmiyyətə və ya cürbəcür hərəkatlara dəstək verməklə aradan qaldırıla bilər. Növbəti fəsildə,AB-nin Cənubi Qafqaza verdiyi dəstək nəzərdən keçiriləcək.

Cədvəl1 Demokratiya Balları və Kök salmış Rəhbərlik(Freedom House)

Ölkə	2010	2011	2012	2013	2014	Köksalmış Rəhbərlik
Ermənistan	5,39	5,43	5,39	5,36	5,36	Hə
Azərbaycan	6,39	6,43	6,57	6,64	6,68	Hə
Belarus	6,50	6,57	6,68	6,71	6,71	Hə
Ukrayna	5,14	4,96	4,82	4,86	4,93	-
Moldova	4,39	4,61	4,89	4,82	4,86	-
Gürcüstan	4,93	4,86	4,82	4,75	4,68	-

Saxtalaşmış seçkilər, siyasi rəhbəliyin siyasi hakimiyyəti və resursları paylaşmamaq iradəsinin əsas ifadəsidir və bu iradə onların həyata keçirə biləcəyi mümkün islahatların sərhədlərini və limitlərini müəyyənləşdirir. Beləliklə,bu üç dövlətin rəhbərliyi AB proqramları və siyasətlərinin hakimiyyət bölgüsünə gətirən, desentralizasiya və hakimiyyətin de-monopolizasiyası riski daşıyan köklü siyasi və ya digər formalı islahatlar aparılmasına müqavimət göstərir.

Hakimiyyət Dəyişikliyi və AB: Diffuziya və Seçkilərin Qiymətləndirilməsi

Hakimiyyət dəyişikliyi məsələsi və kənar amillərin rolu xüsusilə də 2000-ci illərdəki rəngli inqilablardan sonra geniş şəkildə müzakirə olunur. İctimai səfərbərliyin müxtəlif ölkələrə ruhlandırıcı təsirinə həsr olunmuş bir sıra yazılar diffuziya konsepsiyasında və nəyə görə bir çox hallarda onun uğur qazanmasına və digər hallarda uğursuz olmasına dair müzakirələrdə ifadə olunmuşdur.

2005-ci ildəki parlament seçkiləri zamanı narıncı inqilabın atributlarından istifadə edərək Bakıda siyasi dəyişikliyə doğru atılan cəhdin uğursuz olması kənar qüvvələrin bu ölkədə inqilab baş verməsinə maraqlarının olmaması ilə izah edilir. Lakin, eyni mənbələr həmin seçkilərdə, inqilabların uğurlu olduğu ölkələrlə müqayisədə,nisbətən aşağı sayda seçicilərin iştirak etdiyinə işarə vururlar.Beləliklə, bu göstəricilərdən çıxış edərək,ictimaiyyət hakimiyyət dəyişikliyinə 2003-cü ildə hazır idi. Tayı-bərabəri olmayan

üst-üstə düşmə ilə,həm hökümət və həm də müstəqil müşahidəçilər 75% seçkilərdə iştirak olduğunu təsdiq etdilər və bu tamamilə bir amillə-prezident Heydər Əliyevin getməsi ilə bağlı idi. Beləliklə,açıq aydın ölkədaxili səfərbərlik fonunda onu hər hansı bir xarici amilin dəstəkləyəcəyi əlaməti yox idi. Gündəmdəki məsələlər o qədər mühüm idi ki,müşahidə missiyasının rəyi adətən siyasətçilərin "realist" mülahizələri ilə, ATƏT-in peşəkar müşahidəçilərinin qiymətləndirmələri arasındakı kompromis olurdu, bu dəfə isə ATƏT müşahidə missiyasının bölünməsi ilə xarakterizə olundu və İDEA təşkilatının 188 nəfər müşahidəçisi fərqli rəylə çıxış etdi.

Seçkiləri "saxta" kimi pisləyən rəy,seçki fırıldaqlarına,qorxutmalara və siyasi repressiyalara öz qəzəbini ifadə etdi və ATƏT-in yumşaq ilkin bəyanatına narazılığını bildirərək onu "ümumiyyətlə ustalıqla-tənzimlənmiş" adlandırdı[4]. Seçkilərin tanınması, əsil maraqlar və qiymətləndirmənin dürüstlüyü arasındakı ənənəvi kompromisi aydın şəkildə əks etdirirdi.Seçkilərin nəticələri rəsmi şəkildə elan olunmamışdan öncə ABŞ dövlət katibinin müavini R.Armitajın Oktyabrın 17-də İlham Əliyevə təbrik zəngi vurması oğul Əliyevə olan başqa əhəməyyətli dəstəyin siqnalı idi. Eyni ruhda nümayiş etdirilən dəstəklə, D. Ramsveld həmən ilin dekabrında Bakıya hərbi əməkdaşlığı müzakirə etmək üçün etdiyi səfər zamanı İ,Əliyevi qələbəsi münasibəilə təbrik etmişdir[5]. Azərbaycanın nümunəsi aydın olaraq göstərir ki, hakimiyyət dəyişikliyi üçün şərtlər əsasən daxildən kaynaklanır,lakin kənar maraqların ziddiyyətli maraqlarının mövcud olduğu halda səfərbərliyin uğur qazanacağına az şans qalır. Alternativ siyasi qüvvələri,ilk növbədə oğul Əliyevə ciddi rəqib olan və İsa Qəmbər rəbərliyindəki müxalif Musavat partiyasını dağıtmaq cəhdi ilə, seçkilərdən sonra 800-dən çox adam həbs olundu və saxlanıldı.Bu repressiyalar bütün 2004-cü il boyunca davam etdi.

Keçmiş kommunist lideri H.Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra Azərbaycanda heç bir seçkilər beynəlxalq müşahidəçilər tərəfindən azad və ədalətli sayılmamışdır; lakin,onların hər biri faktiki olaraq irəliyə addım və ya demokratiyaya doğru başqa bir addım sayılmışdır.Sadəcə 2013-cü ildə,ATƏT-in müşahidə missiyası presedenti olmayan tərzdə bütövlükdə yeni seçilmiş prezidentin legitimliyini möhkəm şəkildə sarsıdan rəy ifadə etdi və seçki məntəqələrinin yarısından çoxunda saymaların pis və daha pis formada aparıldığını bəyan etdi.

Beləliklə, Azərbaycan və digər Qonşuluq siyasətinin üzvü olan ölkələrin cəlb olunduğu proqram və siyasətlər çərçivəsində AB-nin dəyişikliyə aparan gücü onun izolyasiya

[4] The Azerbaijan "Elections" , October 15, 2003 "Votum Separatum" Institute of Democracy in Eastern Europe. http://www.idee.org/azerbaijanelections.html

[5] Crushing Dissent: Repression, Violence and Azerbaijan Elections. Human Rights Watch, January 2004, Vol.16, No.1 (D).

edilmiş mühitində yox ,demokratiyanın inkişafına kömək edən və ya onun xeyrinə olmayan başqa digər amillərin və siyasi addımların nüfuzu kontekstində yoxlanıldı. İnsan hüquqları müdafiəçisi Leyla Yunus xarici diplomatlarla görüşlərində dəfələrlə demişdir ki, jurnalistlərin,QHT fəallarının və başqa müxaliflərin təqib olunmasının sürətlənməsi, AŞ məruzəçisi Kristof Ştrasserin Azərbaycanda siyasi məhbuslarla bağlı 2013 hesabatının AŞPA-da səsvermə zamanı keçməməsi ilə başlamışdır.

Bu iki onillik ərzində sistemli kompromis və yumşaldılmış seçki dəyərləndirmələrindən sonra baş vermişdir və seçkilərin və küçə demokratiyasının ölkədə hər hansı bir şeyi dəyişdirəcəyi haqda əhalinin ümidini zəiflətmişdir.Əsas demokratik təsisatlara sarsılan etibar böyük dərəcədə siyasi təşkilatların ölkədə siyasi proseslərə nüfuz etmə imkanlarına zərər vurmuşdur. Aşağı səviyyədə seçkilərdə iştirak ardıcıl şəkildə pozulmuş seçkilərin logik nəticəsidir (Nikolayenko,2015).

Azerbaycanın Avropa Şurasında üzvlüyü və təcrübəsi, Azərbaycan rərbərliyinin təkcə Avropa Şurası ilə bağlı yox,bütövlükdə Avropa Təsisatları sisteminin zəif nöqtələri və zəifliklər haqqında hesablamalarında mühüm rol oynamışdır. Ardıcıl olaraq ölkənin insan hüquqları vəziyyətinin pisləşməsi ilə əlaqədar addımların atılmaması və sanksiyaların qəbul edilməməsi bu hökümətin Avropa təsisatları çərçivəsində cəzasızlığına inamı artırmışdır.

Bu cür kompromislərin dağıdıcı təsiri, həm cəmiyyətə və həm də mövcud elitaya siqnal göndərərək hər iki tərəf üçün təhlükə yaradır.Cəmiyyətin demokratik dəyişikliklərə başlıca dəstək olan demokratik ölkələrə arxalanmağını və AB-nin model sistem kimi[6] cəlbediciliyini aşağı salır,eyni zamanda elitanın AB-nin dünyaya "realist" yanaşmasına inamı,xüsusilə də,enerji maraqları olduğda,fəal şəkildə artır.

İlham Əliyevin AB və ABŞ tərəfindən gələn tənqidlərə reaksiyası sərt və kompromissiz idi. Avropa oyunları ərəfəsində Nazirlər Kabineti qarşısında çıxış edərək,o Avropa parlamentinin, AŞPA və Alman Bundestaqının ölkədə insan hüquqlarının pozulması ilə əlaqədar qətnamələrini hədəf almış və onları "çirkli kampaniya...əsasında isə qısqanclıq və pis niyyətlərin durduğu" qətnamələr adlandırmışdır.

[6] The discredited image of the EC rapporteurs in the public's perception is reflected even in the title of news, " *Even* Agramount (PACE rapporteur-L.A.) raises his voice in defense of Rasul Jafarov" Turan, 04.18.15

Münasibətlərdəki assimmetriyanı göstərərək,o həmçinin bəyan etmişdir ki, "biz onlardan heç nə istəmirik. Əvəzində onların bizim qaza,neftə,müqavilələrə,bizim bu coğrafiyadakı fəaliyyətlərimizə ehtiyacları vardır[7]".

O daha da irəliyə gedərək demişdir: "bu qətnamələr bizim üçün bir kağız parçasıdır.Ona görə də heç kim heç bir zaman onları yerinə yetirməyəcək.Qoy Azərbaycan xalqı və bu üfunətli qətnamələri hazırlayanlar bunu bilsin.Azərbaycana heç kim diktə edə bilməz[8]".

Gənc Azərbayacan siyasi fəalına görə,AB-ə olan ictimai inam aşağı enmişdir, xüsusilə də, bu görkəmli hüquq müdafiəçilərinə və QHT-ə qarşı hücumlara və onların həbsinə olan "yumşaq" münasibətdən sonra baş vermişdir.[9]

Paradoksal haldır ki,ATƏT müşahidəçi missiyasının 2003 –cü ildə olduğu kimi bölünməsi 2013 –də də təkrar olunmuşdur və bu dəfə "üsyankar azlıq" Avropa Parlamenti nümayəndələri olmuşdur və onlar ATƏT-in tənqidi rəyi ilə razılaşmamış və özlərinin daha da müsbət rəylərini bəyan etmişlər.

AŞPA-nın həm-məruzəçiləri mülki cəmiyyətlərə qarşı 2013-cü ildə başlanan repressiyalara böyük gecikmə ilə reaksiya vermişlər. Fəallara qarşı miqyasına və sürətinə görə tayı-bərabəri olmayan təqibləri pisləyən ilk bəyənat sadəçə 2015-ci ilin Aprelində Pedro Agramount və Tadeuş İvinski tərəfindən verilmiş və onlar insan hüquqları müdafiəçilərinin həbsini "hədsiz" adlandırmışlar.

Deməli,kənar subyektlərin böyük pozuntularla müşaiyət olunan seçkiləri tanımaqda özündən razı olması yumşaq gücə olan çeviklik göstəricisidir və AB-nin mühüm demoktatik təsisatların standardları ilə bağlı kompromisə getmək bacarığıdır. Digər tərəfdən,bu həmçinin kənar güclərin demokratik dəyişimdən daha çox sabitliyin xeyrinə verdikləri prioritet siqnalları və ya qavrayişlarına gətirir və eyni zamanda özünün güc siyasəti qavrayışını gücləndirir.

Azərbaycanda 2003-cü ildə baş verən açıq aydın seçki pozuntuları və fırıldaqçıların və dövlət zorakılığının cəzasıq qalması 2005,2008,2010 və 2013 seçkilərində daha böyük saxtalaşdırmalara apardı.

---

[7] Ilham Aliyev: they need us, not we-them, Contact.az news site , 13 July 2015 http://www.contact.az/docs/2015/Politics/071300123009en.htm#.VcYll_lViko

[8] Bagirova, Nailia. Azeri leader rejects Western criticism over human rights, Karabagh, Reuters, 12 July 2015, http://www.reuters.com/article/2015/07/13/us-azerbaijan-rights-aliyev-idUSKCN0PN2HW20150713

[9] Gənc lider Əhəd Məmmədli ilə müsahibə 26 Fevral 2015.

Gerald Knausa görə, bu seçkilər sübut etdi ki,təkcə seçki fırıldaqları adi hal almayıb,həm də demokratiyanı qorumalı olan demokratik təsisatlar da bu fırıldaqlara göz yumub(səh.13).

Sosial güc,siyasi dəyişim və mülki cəmiyyətə uzun müddətli dəstək

Cəmiyyət- dövlət balansı saxlanılmasının əhəmiyyəti keçid dövrünə aid yazılmış işlərdə vurğulanır. Azərbaycan halında,ilk neft şirkətlərinin gəlişindən başlayaraq,bu balans hökümətin xeyrinə pozulmuşdur və nəticədə hökümətin mühüm neft bonuslarına çıxışı üçün imkanlar yaranmışdır. Keçid dövrünün və müharibə sonrası şəraitlərin iqtisadi çətinliklərini yumşaltmağa kömək etməkdən əlavə,neft, həmçinin dövləti də,onun təsisatlarını və onu təmsil edən elitaları da möhkəmləndirmişdir. Hökümətdən fərqli olaraq, Azerbaijan cəmiyyəti qonşu dövlətlərlə müqayisədə AB-i və ABŞ-dakı donorlardan ən az maliyyələşən cəmiyyət olmuşdur(Cədvə2-ə bax). Bundan əlavə,müstəqilliyin ilk vaxtlarında,erməni lobbisinin təsiri altında ABŞ Konqresi faktiki olaraq dərhal 1992 –ci ildə 907 adlı Düzəlişi etmiş, Dağlıq Qarabağ münaqişəsinə görə Azərbaycan hökümətinə və dövlət təsisatlarına hər hansı yardımı qadağan etmişdir. Bu addım ilk demokratik yolla seçilmiş və liberal islahatlara açıq olan Xalq Cəbhəsi lideri Ə. Elçibəyi xarici dəstəkdən məhrum etmişdir,əksinə,məsələn,on il sonra AB və ABŞ rəngli inqilabların liderlərinə,o cümlədən,Gürcüstanda Mixail Saakaşviliyə, milyardlarla ölçülən yardım etmişdir.

Cədvəl2[10]. AB-nin 1991-2011 və 2001-2011 (EURO ilə) illəri ərzində Cənubi Qafqaza adambaşına yardımı

Ölkə	1991-2000	2001-2011
Ermənistan	30	85
Gürcüstan	11	134
Azərbaycan	6	18

[10] Bu cədvəl dövlətə dəstək ilə cəmiyyətə,o cümlədən,QHT-lər və digər qeyri-dövlət subyektlərə birbaşa yardım arasında fərq qoymur amma hətta bu toplanmış cəmdən AB-nin Cənubi Qafqaz ölkələrinə verdiyi yardımın fərqini görmək olur. Mənbə: L.Alieva, Report " Tale of two regimes: Oil and Politics in Azerbaijan" NED, February 20, 2008 and Library Statistical Spotlight, Library of European Parliament, The EU's Eastern Neighbors, http://epthinktank.eu/2013/03/19/the-eus-eastern-neighbours/

Sosial və mədəni amillərin "köksalmış rəhbərliyə" qismən töhvə verməsinə baxmayaraq,xarici subyektlərin təhlükəsizlik və sabitliyin demokratiya üzərində prioritetləşdirilməsi az əhəmiyyətli rol oynamamışdır. Azərbaycanın nümunəsində, iqtisadiyyatın neft sektorunda və enerji təhlükəsizliyi mülahizələrində güclü maraqlar olduğundan, təhlükəsizlik və sabitlik artmışdır.

Neftlə zəngin ölkələrlə bağlı əksər tədqiqatlarda,islahatlara açıqlıq və demokratiya perspektivləri birbaşa olaraq struktur amilləri ilə bağlıdır-hidrokarbon resurslarının siyasi iqtisadiyyatı ilə. (Karl, 1996; Ross, 2003; Bayulgen, 2004). Eyni zamanda,"resurs bədbəxtçiliyi" –nin qaçılmazlığına "liderlərin öyrənmə əyri xətti" (Guliyev,2014)kimi amillərlə, resurslara sahiblik növü və ya "neft bumu" başlamazdan öncə aparılmış islahatlarla(Luong, Wienthal, 2010; Alieva, 2009) cavab verilmişdir.

Prezident Elçibəyin demokratikləşmə vasitəsilə Qərbi özünə müttəfiq kimi cəlb edə bilməməsini müşahidə edərək,Azərbaycanın sonrakı hakimiyyəti neft resurslarından və Azərbaycanın strateji yerləşməsindən resurs kimi istifadə edib Qərbi cəlb etmək siyasəti qurdu və deyildiyi kimi "neft diplomatiyası" apardı. Deməli,müstəqilliyin ilk illərindən,bu ölkələr AB və ABŞ-ın birtərəfli təsirlərinin passiv obyektləri olmamışlar,əksinə onlar cürbəcur resurslardan beynəlxalq siyasətin alətləri kimi istifadə edərək özlərinin strategiya və taktikalarını qurmuşlar. Amma, enerji resurslarından siyasi istifadə,keçid dönəminin birinci onilliyinin nəticələrinin müəyyən edilməsində struktur amillərin təsirini neytrallaşdırmamış əvəzində gücləndirmişdir.

Beynəlxalq korporasiyalarla yaxın qarşılıqlı əlaqədə olmaqla,neft resursları və sənayesi üzərində dövlət mülkiyyəti iqtisadiyyat və siyasət üzərində səmərəli monopoliya qurmaq üçün prezidentə kömək edirdi.Alternativ yolun meydana gəlməsi imkanları –demokratik idarəçiliyi inkişaf etdirməklə "neft bədbəxçiliyi"nin təsirlərini neytrallaşdıran siyasət –fərdi liderliyin məhdud baxışına görə, sovet bürokratik keçmişinin böyük təsirinə məruz qaldığından aşağı idi. Lakin,monopoliya və himayədarlıq üzərində 90-cı illərin sonuna yaxın qurulmuş siyasi təsisatlar, artıq rəsmi siyasətləri artan istiqamətdə şəxsləşdirmək və mərkəzləşdirməyə doğru yönəldirdi.

Qərb donorları tərəfindən mülki cəmiyyətə verilən aşağı səviyyəli dəstəyin arxasındakı izahat bir qayda olaraq o idi ki,ölkə varlıdır və pula ehtiyacı yoxdur.Hətta Soros təklif etmişdir ki,neft şirkətləri onun rolunu əvəz edə bilər və o ölkədən getdikdən sonra şirkətlər mülki cəmiyyətə töhvə verməyə başlaya bilər. Bütövlükdə,o inqilabi yolla

hakimiyyət dəyişikliyinin "dağıdıcı" olduğunu və Azərbaycanda ondan çəkinmək ideyasını təşviq edirdi və hakmiyyəti azad və ədalətli seçkilər keçirməyə çağırırdı[11].

Üç səviyyə və amil AB-nin dəyişdirici təsirini mürəkkəbləşdirir və onlar aşağıdakı fəsillərin mövzusu olacaqdır: həm siyasət formalaşdırlmasında və onun yerinə yetirilməsində alternativ gündəliyin təsiri və həm də təsisat qurma qiymətləndirilmələrində demokratik standardların aşağı salınması. İkinci isə regional amildir –alternativ gücün mövcudluğu, hansı ki,rəhbərlik üçün manevr imkanlarını genişləndirir və daxili siyasi status kvonu saxlayır. Və sonuncu isə- demokratikləşmə təsirlərinə köməkedici olmayan beynəlxalq mühitdir.

AB-Azərbaycan münasibətləri: dəyərlər üzərindən maraqlara qədər?

Azərbaycan öz müstəqilliyinin ilk illərindən başlayaraq, Qərbin transmilli neft şirkətlərinin Xəzərin hidrokarbon resurslarına çıxışlarına kömək etməklə AB və ABŞ-ın enerji təhlükəsizliyində əhəmiyyəyli rol oynayır.Prezident Heydər Əliyev "əsrin müqaviləsni" imzalamaqla Rusiyadan regional asılılıq məsələsində böyük addım atdı və bu müqaviədə cəmi 10% Rusiyanın payına düşdü.İlham Əliyevin prezidentliyi müddətində,Azərbaycan, AB-ə qaz təminatını şaxələndirmək istiqamətində əhəmiyyət qazanmışdır. Bu BP-nin Xəzərin Şahdəniz sahəsində geniş qaz yataqlarını tapması ilə və həmçinin Xəzərin o biri sahilindən gələcəkdə qaz nəqliyyatı üçün Azerbaycanın tranzit ölkə olması mümkünlüyü ilə olmuşdur. Bu əhəmiyyətlilik 2000-ci illərin sonunda Rusiya ilə Ukrayna arasında qazın qiyməti ilə bağlı böhran yarandıqdan sonra artmış və sonralar Maydan,Krımın ilhaqı və Şərqi Ukraynada müharibə nəticəsində daha da artmışdır.

Azərbaycanın Avropa Qonşuluq Siyasətində iştirakının 10-cu ildönümü mülki cəmiyyətə qarşı tayı-bərabəri olmayan hüçüm və repressiyalarla yadda qaldı. 2014-cü ilin əvvəlində Azərbaycan hökuməti xarici fondların və yerli QHT-lərin fəaliyyətləri ilə bağlı bir neçə cinayət işi açdı.Bir neçə QHT liderləri həbs olundu,bir qisminə xaricə qaçmaq müyəssər oldu və bir qisminin isə bank hesabları donduruldu və onlara xaricə getmək qadağası qoyuldu. Ən məşhur insan hüquqları qoruyucularından biri Arzu Abdullayeva hesab edir ki, bu son 20 il ərzində insan hüquqları vəziyyətinin ən pis böhranıdır.

[11] Azerbaycan axtarmalıdr

AB-Azərbaycan münasibətləri,xüsusilə də 2006-cı ildə enerji Memorandumu imzalanandan sonra iki paralel istiqamətdə inkişaf etmişdir: biri praqmatik əsasda,digəri isə normativ qaydada,Fəaliyyət Planında nəzərdə tutulduğu kimi.

AB-nin Rusiya ilə münasibətlərində olduğu kimi,münasibətlər o yerə çatmışdır ki, burada qarşılıqlı enerji ticarəti əsasında hesablamalar normativ yanaşma formasını alır və AB-i qaz təminatını şaxələndirmək sahəsində Azərbaycandan asılı olduğuna görə bu münasibətlər "assimmetrik qarşılıqlı asılılığa" çevrilir(Hughes,2006).Rusiya ilə Azərbaycan arasında bir neçə aydın fərq vardır: biri nüvə silahı olan keçmiş böyük imperiyadır və qaz ilə AB üzərində geniş təsirə malikdir. Azərbaycan isə çox kiçik ölkə olub AB-nin Şərq Tərəfdaşlıq siyasətinin bir hissəsidir və AB-nin heç də əhəmiyyətli dərəcədə qaz ehtiyaclarını ödəmək imkanında deyil.

Lakin,Azərbaycanın "assimmetrik qarşılıqlı asılılıq" mövqeyini gücləndirən digər resurs – Qərb tərəfdaşlarının zəif nöqtələrini bilməsidir,məsələn,onların dəyərləri inkişaf etdirməkdə qeyri-ardıcıllığı,korrupsiya və beynəlxalq münasibətlərin daha geniş məsələləri. Bu məsələlər sonuncu fəsillərin mövzusu olacaq.

Az motivasiyalı və daha çox avtoritar ölkələrlə necə işləmək haqqında iki əks fikir mövcuddur və o AB-nin bu qonşuluqda qeyri-ardıcıl və qətiyyətsiz qeyri-müəyyən maraqları dilemmasını əks etdirir.Ziddiyyət nöqtəsi, AB-nin hökümətlərlə konstruktiv iş birliyinə girməsi yoxsa şərtlər prinsipi ilə "cəzalndırmasından" ibarətdir. Azərbaycana çox zaman şərtilik prinsipinin təhlükəsizlik,enerji və ya ticarət maraqları ilə necə aşılandığı baxımından "Şərq qonşuluğunda dəhşətli hal" kimi isnad edilir(Raik,2011).Fəaliyyət Planında göstərilidiyi kimi,islahat sahələrinin apatiya ilə yerinə yetirilməsi ilə üzləşərək,AB şərtilik yanaşmasını tətbiq etməmişdir; Halbuki,mülki cəmiyyətlərə qarşı əsas repressiyalar baş verən zaman,o Azərbaycan üçün daha da rahat şərtlərdə danışıqlar aparmağa razılaşdı:Strateji Modernizasiya Tərəfdaşlıq Sazişi.

AB-nin Belarusa tətbiq etdiyi ikili trək yanaşmasından fərqli olaraq(rəsmilərə qarşı sanksiya və cəmiyyətlə əməkdaşlıq), Azərbaycanda isə cəmiyyətlə əlaqələrdə, xüsusilə siyasi partiyalara dəstək və seçki kampaniyası fəaliyyətlərində ehtiyatlı olaraq, rəsmilərlə konstruktiv əməkdaşlıq yolundan istifadə etmişdir. İslahat prosesində cəmiyyət əsas maraqlı tərəf və subyekt olduğundan,bu cür siyasət AB-nin siyasi sistemin hər hansı mühüm açılımına təsir etmək imkanını zəiflətmişdir.

Digər qeyri-ardıcıllıq ŞTP-dakı tərəfdaşlara fərqli yanaşmanın izahatlndadır. İddia olunur ki,tərəfdaşlarla münasibətlər "fərqli prinsiplər əsasında qurulacaq və bu münasibətlər hər kəsin məqsədlərinə və imkanlarına uyğun inkişaf etdiriləcəkdir"[12].

Bu yanaşma ancaq avtoritar ölkələrdə siyasi status kvonu gücləndirər. Azərbaycanla münasibətlərdə isə faktiki olaraq,Belarusda tətbiq edilən ikili trək yanaşması mülki cəmiyyətə mühüm yer verməklə və rəsmilərə şərtlər tətbiq edilməklə tətbiq edilməli idi.Bu loqikaya görə,fərqli yanaşma o zaman islahatların qarşısındakı fərdi maneələri hədəf seçəcəkdir-Azərbaycanın timsalında- bu neftdən asılı olan iqtisadiyyatın yaratdığı strukturlaşmış siyasi disbalansa ünvanlanacaqdır; Ermənistanın timsalında isə bu iqtisadiyyatın və siyasətin de-sekyuritizasiyasıdır; Belarus halında isə onun iqtisadiyatının və siyasətinin Rusiyadan uzaqlaşdırılmasıdır. Fərdi yanaşma prinsiplərinin formalaşdırılması ilə, AB pro-aktiv tərəf kimi yox,daha çox ölkədə gedən mövcud tendensiyalara uyğunlaşan rol alır. Və bu yolla,ölkədə hər hansı transformasiyaya şərait yaradan qarşılıqlı əlaqənin yaranmasını ortaya qoya bilmir.

"Rantiyer dövlət" fenomeninin xarakteristikalarından biri, xalq ilə hökümət arasındakı həyati əlaqə, neft pulları vasitəsilə dağıldıqda hökümətlə xalq arasında uçurumun yaranmasıdır. Hökümət və dövlət strukturları vergi hesabına yox, gələn yüksək neft gəlirləri hesabına işləyirlər. AQS-nin Azərbaycanla bağlı strateji sənədi, ölkənin iqtisadiyyatının şaxələndirilməsi zərurətini və korrupsiyaya qarşı mübarizəni vurğulayır,lakin burada, Şərq Tərəfdaşlığının digər ölkələrindən fərqli olaraq mülki cəmiyyət və müxalifəti gücləndirməklə bərabər, "rantiyer dövlətin" struktur təsirlərini neytrallaşdırmaq üçün hakimiyyət bölgüsü təsisatlarının inkişaf etdirilməsi haqqında daha çox zərurətin olduğu haqqında çox az söz açır.

Digər tərəfdən,AB-nin dəyər əsaslı gündəliyinin daha praqmatik siyasətlə əvəz edilməsi post-sovet məkanında yenilik deyil. AB ilə Rusiya arasındakı münasibətlərdə Çeçen Müharibəsinin insan hüquqları məsələsi, Rusiya rəhbərliyinin bir çox Avropa liderləri ilə şəxsi münasibətlər qurmaq hesabına və ikitərəfli zirvə görüşlərində iqtisadi məsələlər üzrə praqmatik danışıqların üstünlük qazanması hesabına və daha geniş strateji əməkdaşlıq hesabına getdikcə öz qabarıqlığını itirdi(Hudges,2006).

Enerji gündəminin demokratiyanın inkişafı üçün təsirləri, AB-nin digər zəngin resurslu post sovet ölkələri olan Türkmənistan və Qazaxstanla münasibətlərinə da şamil edilmişdir. Azərbaycandan fərqli olaraq bu ölkələr AQS və ya ŞT üzvləri olmasalar da və şərtilik mexanizmi bu münasibətlərin bir hissəsi olmasa da, AB-nin bu ölkələrlə ticarət və

[12]Eastern Partnership. Communication from the Commission to the European Parliament and the Council. Brussels 3.12.2008, COM (2008) 823final, p.8. http://eeas.europa.eu/eastern/docs/com08_823_en.pdf.

iqtisadiyyat sahəsindəki münasibətləri geniş inkişaf etsə də, eyni cür siyasət burada da aparılır. Brüssel Türkmənistanda enerji və demokratiya inkişafı gündəmini bir yerdə aparmaqda çətinlik çəkir-Türkmənistan rantiyer azad olmayan ölkə olaraq TransXəzər qaz kəməri vasitəsilə AB-nin qaz təminatını şaxələndirmək siyasətində potensial roluna görə əhəmiyyətlidir(Boonstra,2012). Beynəlxalq insan hüquqları təşkilatları Türkmənistanın digər avtoritar ölkələrlə birlikdə AB-i tərəfindən AB Enerji Birliyi-nin[13] tərəfdaşı siyahısına salınmasına dərhal reaksiya verdilər və onlar bəyan etdilər ki,insan hüquqları pozuntularını eyni zamanda və açıq surətdə pisləmədən bu cür enerji əməkdaşlığı diktatorluqları qoruyacaqdır[14].AB-nin Hasilatın Pay Bölgüsü Sazişlərini (PSA) qəbul etməyi təxirə salmasına baxmayaraq,sazişi yekunlaşdırmağın müqabilində insan hüquqları məsələsində ardıcıl təzyiq olmadı və Ali Komissar Eşton 2012-ci ildə Aşxabada ilk səfərində insan hüquqları pozuntuları haqqında söz açmadı[15].

Qazaxstan Rusiya və Ukraynadan sonra AB-nin üçüncü ən böyük tərəfdaşıdır və OPEC üzvü olmayan ölkələr arasında Rusiya və Norveçdən sonra,AB-ə ən böyük enerji təminatçısıdır.Artan iqtisadi əlaqələr 2014-cü ilin sentyabrın 9-da 3 illik danışıqlardan sonra 1999-cu ildən bəri[16] qüvvədə olan Hasilatın Pay Bölgüsü Sazişlərini əvəzləyən və bu sahədə ilk olan Gücləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Müqaviləsi imzalandı. Baxmayaraq ki,AB-i bu müqavilənin imzalanmasını siyasi islahatların gedişi və uğurlarından asılı etmişdi,2011-ci ildə danışıqlar başlayan dövrdən, insan hüquqlarının vəziyyəti daha da pisləşmişdir[17]. Buraya Janozendə 2011-ci ilin dekabrında baş verən etirazların zorakı yollarla yatırılması və sonrakı həbslər,işgəncə və hüquqi prosedurların pozulması,beynəlxalq standardlara uyğun gələmyən 2012 seçkiləri və mediaya olan repressiyalar daxildir. Pisləşmiş insan hüquqları hesabatına baxmayaraq,AB Qazaxstanla münasibətlərini yaxşılaşdırmış və Kəşfiyyat və Hasilatın Pay Bölgüsü sazişləri (EPSA) imzalamışdır.

---

[13] Energy Union Package. Communication from the Commission to the European Parliament, the Council, the European Economic and Social Committee, the Committee of the Region and the European Investment Bank. A Framework Strategy for a Resilient Energy Union with the Forward Looking Climate Change Policy. Brussels, 25.02. 2015, COM(2015) 80 final.

[14] Energy Union a Green Light for Human Rights Abuses, warns NGO. Euroactiv.com 26 February 2015, http://www.euractiv.com/sections/energy/energy-union-green-light-human-rights-abuses-warn-ngos-312460.

[15] Human Rights Watch World Report 2014. Turkmenistan. https://www.hrw.org/world-report/2014/country-chapters/turkmenistan

[16] Kazakhstan's deepening ties with Europe. By Nick Norling , CACI Analyst, 11/11/2014 http://www.cacianalyst.org/publications/analytical-articles/item/13091-kazakhstans-deepening-ties-with-europe.html

[17] EU missing the boat on Kazakhstan reform. By Yevgenyi Zhovtis, Almaty, 30 June 2014. Euobserver.com https://euobserver.com/opinion/124805

AB-nin Rusiya ilə siyasətinə oxşar olaraq,AB - Azərbaycan münasibətləri, Azərbaycanın AB-i ilə daha dərin inteqrasiyaya meyl edən assimmetrik əlaqəsindən, assimmetrik

praqmatik maraqlar əlaqəsinə keçmişdir və burada Azərbaycan daha qazanclı mövqedədir. Bu transformasiya neftin bir barrel qiymətinin 80 dollara yüksəlməsi ilə artmışdır və qiymətlərin artması iqtisadiyyatı,"resurs millətçiliyini" və özünə inamı gücləndirmiş və onunla bərabər xarici siyasətdə mərkəzəqaçma tendensiyaları ilə nəticələnmişdir.

Qarşılıqlı əlaqə: keyfiyyət və kəmiyyət

Way və Levitskinin (2005) ortaya qoyduğu qarşılıqlı əlaqə və təsir amilləri və demokratikləşməyə təsiri baxımından qarşılıqlı əlaqəninin prioritetləşdirilməsinə baxsaq, Azərbaycan nümunəsi istisnaya bənzəyir, nəinki müəyyən qaydaya və qarşılıqlı əlaqənin məğzinin həlledici təsir amili olduğunu dərəcələşdirməyə imkan verir.

AQS ölkə strategiyası sənədi bəyan edir ki, "AB –Azərbaycan əməkdaşlığı məqsədinin prinsipi əvvəlki iqtisadi və siyasi əməkdaşlıq səviyyələrini aşan daha yaxın münasibətləri, o cümlədən, enerji, xarici və təhlükəsizlik siyasəti üzrə əməkdaşlıq inkişaf etdirməkdir[18]". Bu sənəd qeyd edir ki,AB yardımı "Tərəfdaşlıq Əməkdaşlıq Sazişində və AQS Fəaliyyət Planında ifadə olunduğu kimi Azərbaycanın islahat proqramına dəstək məqsədi güdür ,ölkədə demokratiya və bazar iqtisadiyyatının təməllərini gücləndirmək və ölkənin mənfəətləri naminə neft və qaz resurslarının məhsuldar və şəffaf idarə edilməsini təmin etmək məqsədi daşıyır"(səh19).

Lakin bu sənəd bütöv yanaşma tətbiq edə bilmir və artıq aydın olan "neft bədbəxtçiliyi" tendensiyalarını ayırd edə bilmir və "siyasi qarışıq" toplusundan ibarət məqsədlərini təqdim edir. Bu strategiya sənədi, enerji maraqları və AB-Azərbaycan münasibətlərinin prioritetlərini müəyyən etmə səviyyəsinə çıxmış islahatlar məqsədlərinin təşviqi arasında hər hansı əlaqə qurulmasından çəkinir. Burada enerji əməkdaşlığının bir nömrəli prioritet olan –siyasi islahatların gücləndirilməsinə hər hansı mümkün "yan təsirlərinin" olduğu haqqında hər hansı bir əlamət yoxdur.

Bəyan edilən məqsədlərə və daha çox strategiyada uçurumların üzə çıxarılmasına baxmayaraq,bu münasibətlər tezliklə enerji əməkdaşlığı proqramının normativ məqsədlərə necə təsir etdiyini göstərəcəkdir. Yeni AQS və ŞT səviyyədə əməkdaşlıqdan bəri, Azərbaycan həlledici iqtisadi sahə olan enerji sahəsində AB-i ilə mühüm qarşılıqlı əlaqə göstəricisinə malik oldu və AB neft sahəsində ən irəlidə gedən ticari tərəfdaş oldu. Son bir neçə ildə,Azərbaycan mülki cəmiyyəti yüksək səviyyədə yardım almış və 2013-də hətta bütün başqa ŞT ölkələrini ötmüşdür. Lakin,ŞT inteqrasiya İndeksinin göstərdiyi kimi siyasi dialoq,xüsusilə AB rəsmilərinin mülki cəmiyyət və müxalif siyasi partiyalarla görüşlərinin tezliyi və həmçinin siyasi partiyaların Avropadakı həmkarları ilə şəbəkələrinin sıxlığı digər ŞT üzvü olan ölkələrdəkindən çox aşağıdır.

[18] European Neighborhood and Partnership Instrument, Azerbaijan, Country Strategy Paper, 2007-2013, p.19.

Beləliklə,AB tərəfindən ya təmaslar vasitəsilə, ya da bu təsisatların əhəmiyyətini nümayiş etdirən diplomatik hərəkətlər vasitəsilə demokratik qüvvələrin və sosial güclərin siyasi baxımdan gücləndirilməsi çox az olmuşdur.

Bu onu göstərir ki,qarşılıqlı əlaqənin dərəcəsi-sıxlığı yox,daha çox onun keyfiyyəti demokratikləşmə üçün təzyiq yaradar. Ancaq,Mixail Ross və Terri Karl-ın dediyi kimi,enerji sahəsində əməkdaşlıq struktur baxımından demokratikləşməyə maneçilik törədir.

Azərbaycanda Sovet bürokratik mirasının, hidrokarbon resurslarının siyasi iqtisadiyyatı ilə birləşməsi demokratikləşmə üçün struktur maneələri yaratmışdır.

Azərbaycanın siyasi sistemi bol təbii sərvətlərdən daxili siyasi hakimiyyətin gücləndirilməsində və xarici siyasətdə ondan səmərəli vasitə kimi istifadə edilməsi üzərində qurulmuşdur. Özünün bürokratik şəbəkəsi üzərində oturmuş keçmiş kommunist lideri Heydər Əliyev, neftdən dolanan himayədarlığı və sovet sistemində olduğu kimi vertikal icra ierarxiyasını qurmuşdur. Sistem idarə olunan seçkilər və yavaş-yavaş azaldılan azadlıqlar üzərində qurulmuşdur və onun idarəçiliyinin on ili ərzində Freedom House Azərbaycanı "qismən azad" ölkə və ya yarı-avtoritar dövlətlər siyahısına salmışdır. Ölkə iqtisadiyyatının neft gəlirlərindən artan asılılığı,xüsusilə də 2003-cü ildə hakimiyyətin atadan oğula dəyişməsi ilə və 2005-ci ildə BTC boru kəmərinin işə salınması ilə başlanan əsas neft axını ilə, Azərbaycan, təbii sərvətlərin siyasi rejimlərə təsirinin faktiki olaraq mükəmməl nümayişinə çevrildi. Əsas neft gəlirlərinin axını və ölkənin neft şirkətinin güclənməsi, ondan şaxələnmə yolu ilə resursların nəqli sistemləri üzərində nəzarəti üçün istifadəyə imkan verdi.H. Əliyev tərəfindən neft resurslarının xarici siyasətdə neft müqavilələrinin paylanması yolu ilə uğurla istifadə edilmiş inanılmaz siyasi təbiəti, SOCAR-ın enerji nəqliyyatı layihələrində iştirakı vasitəsilə dövlətin təsirini genişləndirərək, onun oğlu tərəfindən də "boru-kəməri" siyasəti vasitəsilə davam etdirilmişdir. Enerji və siyasət arasındakı əlaqələri analiz edərək və ölkənin regional lider olması üçün SOCAR-ın siyasi alət kimi rolunu vurğulayaraq,Lussac(2010) deyir ki, İlham Əliyev "ölkəni transmilli şirkət kimi idarə edir". Dövlət və dövlət neft şirkəti münasibətləri bir-birini gücləndirərək mühüm qarşılıqlı mənfəətə gətirmişdir.

Demokratik Qüvvələrin Milli Şurasının Beynəlxalq Komissiyasının Başçısı Gültəkin Hacıbeyli ölkənin Avropa ilə yaxınlaşmaq istəyində olduğunu iddia etsə də, bu istiqamətdə geniş addımlar atılmadığını demişdir."Bu hakimiyyətin korporativ maraqları

ilə bağlıdır,onlar monpoliyadan əl çəkmək istəmirlər,siyasi və iqtisadi islahatları davam etdirmirlər.İnsan hüquqları ilə bağlı vəziyyət çox pisdir" –o demişdir[19].

Repressiyaların vaxtı da müdrikcəsinə seçilmişdir.İyun ayında,tayı-bərabəri olmayan təqiblər ərəfəsində aparıcı QHT-lərin bank hesabları bağlananda,Manuel Barroso-nun Bakıya səfəri AB-nin əsas və ən etibarlı enerji tərəfdaşlarından birinin Azərbaycan olduğu təsdiq edildi və bu qarşılıqlı iqtisadi və enerji təhlükəsizliyinə töhvə verdi[20].Tərəflər Cənub Qaz Koridoru layihəsinin gedişini müzakirə etdilər və bu layihə Avropaya 2019-a qədər 10 bcm civarında və 2019 –dan sonra isə daha çox həcmdə qaz təmin etməlidir. Aydındır ki, şərtiliyin tətbiq edilməsi AB-nin enerji təhlükəsizliyi üçün Azərbaycanın bur cür mühüm əhəmiyyətli dövründə söhbət mövzusu ola bilməzdi,tam əksinə olaraq, AB Azərbaycanın təklif etdiyi yeni müqavilə üzərində danışıqlar aparılmasına razılıq verdi –və bu mesaj ali komissarın elə həmən gün mülki cəmiyyət ilə görüşü zamanı icyimaiyyətə çatdırıldı.

ŞT-ı Enerji Nazirlərinin qeyri rəsmi dialoq çərçivəsində 8 sentyabr 2014 Bakı görüşü az əhəmiyyət daşımırdı və burada Ukrayna,Gürcüstan,Moldova,Azərbaycan və Belarusun enerji nazirləri və həmçinin Avropa Komissiyasının vitse-Prezidenti G.Ottinqer və Avropa Birliyinin Genişlənmə və Qonşuluq siyasəti üzrə Komissarı S.Fule iştirak edirdilər Sonrakı dəyirmi masanın mövzusu təminat yollarının şaxələnməsi və AB vəŞərq tərəfdaşlarının enerji təhlükəsizliyi idi[21].

Fevralın 12-də Cənub Koridorun Məsləhət Şurası tərəfindən qəbul edilən və başqaları ilə bərabər AB rəsmiləri və ABŞ və Böyük Britaniyanın nümayəndələri tərəfindən imzalanan qətnamə, enerji təhlükəsizliyinin əhəmiyyəti və enerji nəqlinin təhlükəsizliyi kontekstində "Xəzər bölgəsində real hidrokarbon istehsalçısı kimi Azərbaycanın aparıcı rolunu" tanıyaraq və Cənub Qaz Koridorunun Azərbaycan Respublikasından Avropa Bazarlarına yeni qaz təminatı mənbələrinin təmin edilməsinin həyata keçirilməsinə öz siyasi dəstəyini verəcəyini bir daha təkrar etmişdir"[22].

2014-cü ilin yazlnda mülki cəmiyyətə qarşı başlanan dağıdıcı hücum, 20 sentyabr 2014-cü ildə Cənub Qaz Koridorunun təntənəli mərasiminə qədər faktiki olaraq tam başa çatdırıldı və bu mərasim qaz boru kəmərinin son hissəsi üzrə razılığın ifadəsi idi və

[19]Turan News Agency, 15.04.2015.
[20] KUNA: Azerbaijan-Strong Energy Partner-EU, Natural Gas Europe, 16 June 2014. http://www.naturalgaseurope.com/azerbaijan-energy-partner-eu
[21] Meeting of the Energy ministers of the Eastern Partnership in Baku Embassy of Ukraine in Azerbaijan, 9 September 2014. http://azerbaijan.mfa.gov.ua/en/press-center/news/27652-meeting-of-energy-ministers-of-the-eastern-partnership-countries-in-baku
[22] Southern Gas Corridor Advisory Council, Joint Press Statement 12 February 2015, Baku.

burada digər başqa geniş qaz ehtiyatlarının geniş potensialı Azərbaycan rəsmiləri tərəfindən təqdim olundu[23]. Ancaq, hakimiyyətlə qeyri bərabər vəziyyət fonunda,Avropa Təsisatları ilə aşağı səviyyəli inteqrasiya və şəbəkə halında olan siyasi müxalifət müstəqil sorğulara görə,1998-ci ildə prezident seçkilərində, 2000 parlament seçkilərində və 2003 prezident seçkilərində qələbəyə çox yaxın olmuşdur.

Azərbaycanın post-sovet tarixi göstərmişdir ki,çox hallarda demokratik qüvvələr,ilk növbədə müxalifət,Qərb hökümətlərinin Azərbycanda seçkiləri tanıması və bununla da yerli avtoritarlara legitimlik verməsini demokratikləşməyə qarşı maneə kimi görürlər. Müşahidə missiyalarının rəylərinin ən yumşaq ifadələri,fırıldaq nəticəsində hakimiyyətə gəlmiş liderlərin bu fırıldaqların nəticələri ilə üzləşməməsi və bundan başqa davam edən "konstruktiv münasibətlər"-in hamısı həm müxalifətin zəifləməsinə kömək etmiş,həm də ictimaiyyətin seçki təsisatlarına və mənəvi güc kimi AB-ə olan etibarını zəiflətmişdir.

Azərbaycan kimi enerji ilə zəngin ölkəninn timsalında kənar təsirlərin özəlliyi heç də AB kimi subyektlərin demokratiyaya köməyi və eyni zamanda Rusiya kimi regional güclərin isə avtoritarları dəstəkləməsi deyil. AB və digər inkişaf etmiş demokratik ölkələrin siyasətləri alternativ bölgəsəl "pozucu" olan Rusiya ilə bərabər siyasi "status quo"-nun qalmasına kömək edir, nəinki müxtəlif yollarla,məsələn, seçki müşahidə missiyaları ilə siyasi dəyişikliyə.

Nəticədə,kənar subyektlərin enerji maraqları, müxalifət və demokratiya tərəfdarlarının müttəfiqlərinin məhdudlaşmasına gətirir. Qərb biznes və hökümətləri avtokratların hakimiyyətini sarsıtmağa birləşdiyi yerdə-güclü enerji proqramı olduğu halda(və ya başqa digər alternativ), onlar yəqin ki,o zaman özününküləşdirilmiş avtoritar rəhbərliyi dəstəkləyir və bu bir nəfərlə daha böyük işlər görmək daha da asanlaşır.

Təsir vasitəsi: dəyərlərin qeyri-ardıcıll təşviqi AB-nin zəifliyi kimi və praqmatik proqram münasibətlərdə assimetriyanın mənbəyi kimi

İlk növbədə seçkilər zamanı, qarşılıqlı razılıq əsasında aparılan qiymətləndirmə və demokratik təsisatların aşağıya salınmış standardları siyasi rejimə hiss olunan təsir edir. Birincisi,o, demokraik cəmiyyətin (mülki cəmiyyət,müxalifət partiyalar,media) və ictimaiyyətin seçkilərə olan etibarını sarsıdır.Digər tərəfdən,o avtokratiyanı gücləndirir və

[23] 12th Meeting of the Eastern Partnership Platform 3 on Energy Security , 23 October 2014, Brussels, Belgium.

legitimləşdirir və bununla bərabər AB üçün demokratiya və dəyərlərin məhdud əhəmiyyətli olduğu təəssüratını yaradaraq, onların keçid dövrü təbiətli olduğu siqnalını verir. AB –nin dəyişiklik yaradıcı qüvvəsi haqqında yazılan yazıların iddia etdiyi kimi, şərtilik prinsipi o zaman işləyir ki, tərəfdaş ölkə üzvlük üçün çalışır. Azərbaycanın timsalında,AB-i ilə münasibətlərdə prioritet daşıyan enerji vektoru bu münasibətləri Bakı və Brüssel arasındakı bürokratların münasibətləri ilə məhdudlaşdırır. Yuxarıda göstərilən ictimaiyyət ilə hökümət arasındakı uçurum, hakimiyyətdə olan elitanın şəxsi maraqlarının əleyhinə olaraq,inteqrasiyadan xalqın bəhrələnməsi, hökümətin az da olsa narahatlığı ilə ifadə olunur. Ölkənin elitası, öz bank hesabları ilə,Avropa paytaxtlarındakı mülkiyyətləri ilə,yatırım və sənaye obyektləri ilə, ailə və uşaqlarının Avropada yaşayıb oxuması ilə, Avropa Birliyinə artıq uğurla inteqrasiya olmuşdur.

Yerli ekspertlərə görə,hətta orta səviyyəli rəsmilərin ailələri və evləri Avropadadır və bəzən onlar həftə sonu Bakı ilə Avropa şəhərləri arasınada səfər edirlər.Digər tərəfdən,siyasi islahatlar və demokratikləşmə aparmaq öhdəliklərinə görə,inteqrasiya elitaya baha başa gəlir. Bu da təbii olaraq elitaya dövlət səviyyəsində AB-ə daha da inteqrasiya etmək üçün və hətta bundan daha çox, üzvlüyə can atmaq üçün stimul vermir.

2015-ci ilə qədər Azərbaycan rəsmiləri bəyan edirdilər ki, bərabər tərəfdaşlıq və beynəlxalq hüquq prinsiplərinə söykənən qarşılıqlı sadiqlik, tərəflər arasında etibarlı və inam yaradan münasibətlər üçün həlledici əhəmiyyət daşıyır və onlar fərqli yanaşma prinsipini tam dəstəkləyirlər[24].

Assimmetrik münasibətlərin sonucda siyasi islahatların qəbul edilməsinə aparacağını anlayaraq,2012-ci ildə Azərbaycan rəsmiləri AB ilə münasibətləri "bərabər" əsasda qurmaq niyyətlərini ortaya qoydular.Beləlilkə inteqrasiya məsələsi Azərbaycanın rəsmi gündəmindən çıxarıldı və AB ilə qarşılıqlı maraqlar əsasında yeni tərəfdaşlıq danışıqları aparmaq iradəsi ilə əvəz edildi.

Sonralar 2015-ci ilin mayında ,Azərbaycanın xarici işlər naziri Assosiativ Müqaviləni imzalamamağının səbəblərin Rusiyanın Kanal24- televiziyasına verdiyi müsahibədə Brüssel ilə strateji münasibətlər qurmaq marağından dolayı olduğunu bildirmşdir[25].Eyni zamanda,Qarabağ münaqişəsinin həllini ilkin şərt olaraq qoymaqla, ölkənin ABŞT proqramına mümkün üzvlüyü açıq qoyulmuşdur.

---

[24] "Mammadyarov lists conditions for EU Azerbaijan partnership" Statement of Azerbaijan Foreign Minister Elmar Mammadyarov, at the meeting with of EU foreign Ministers and EaP in Luxembourg 20 April 2015. Turan news agency 21.04.15 Baku

[25] Elmar Mammadyarov: Who knows what will happen tomorrow? Turan news agency , 25.05.15.Baku.

Belarusa qoyulan sanksiyalardan fərqli olaraq,AB-nin konstruktiv əməkdaşlıq siyasəti uğurlu enerji ticarətinə və enerji təhlükəsizliyi layihələrinin həyata keçirilməsinə gətirmişdir,lakin bu uğurlar elitanın Avropa və Avropa klubuna "inteqrasiyası" ilə,.insan hüquqları və demokratiya göstəricilərinin dramatik şəkildə aşağı düşməsi və 2014-cü ildə pik nöqtəsinə çatması ilə müşaiyət olunmuşdur. Paradoksal haldır ki,əsas repressiylar Azərbaycan Avropa Şurasının sədri olan dövrə təsadüf etmişdir.

Enerji gündəmi AB-i rəsmilərinin hökümətə göndərdiyi siqnallara birbaşa təsir etmişdir. Brüsseldə enerji memorandumu imzalanan zaman,Prezident Barroso bildirmişdir ki, o demokratik ölkə qurulmasında mövcud olan problemləri başa düşür,çünki "bu ölkə heç vaxt əvvəllər demokratik ölkə olmayıb".

Dəyərlərin təşviq edilməsində mövcud olan qeyri-ardıcıllıq AB-nin zəif nöqtələrini üzə çıxararaq AB ilə Azərbaycan arasındakı assimmetrik münasibətlərin zəifləməsinə də kömək etmişdir. Dəyərlərin maraqlara və geopolitik mülahizələrə təbe etdirilməsi AB-nin etibarının zəifləməsini qaçılmaz edir(Vachudova,2006).

By cür zəif nöqtələrdən istifadə edərək Azərbaycan rəhbərliyi Avrpa Şurasını "zəbt "etmişdir və o, Gerald Knausa görə,Avropada insan hüquqları hərəkatının mövcudluğunu təhlükədə qoyan təhlükə törətmişdir. Əliyevin lobbi kampaniyalarının uğurunun əsil səbəbi Avropa demokratlarının öz insan hüquqları təsisatlarına " dəhşətli laqeydliyidir"(Knaus,2015).

Bu nümunənin nümayış etdirdiyi kimi,alternativ gündəliklərin əsas xarakteristikalarından biri (bizim halda neft olaraq) demokratik təsisatların işinin qiymətləndirilməsinin aşağıya salınmış gözləntiləri və standardlarıdır,hansı ki, onlar Avropa siyasətçilərinin lobbiçilik səylərinə və korrupsiyaya olan həssas hissləri ilə bərabər, AB-nin subyekt kimi bölgədə zəifliyinə və zəif nöqtələrinin olması qavrayışına kömək edir.

Eyni zamanda.neftin qiymətinin dünya bazarında qalxması ilə toplanan geniş resurslardan, ölkə daxilində ciddi himayədarlığa dəstəkdən əlavə,Avropadan və Avropa layihələrindən siyasi dəstək almaq üçün, xaricdə İlham Əliyev tərəfindən hesabla xərclənir. Azərbaycan, TAP və TANAP kimi boru kəmərlərinin tikintisinin mühüm hissəsini maliyyələşdirir,Bosniya_Herseqovina, Qaradağ və Serbiya kimi Şərqi Avropanın kasıb ölkələrinə yatırım qoyur, başqa hökümətlərin layihələrinə yumşaq kreditlər verir və onlar də iş yerləri açır. O, həmçinin Bolqarıstan, Macarıstan,Yunanıstan və Baltik dövlətlərində yatırm qoyur və onlarla işləyir. Azərbaycan hökümməti Avropada müxtəlif xeyriyyə və mədəniyyət layihələri həyata keçirir,məsələn, aktivləri şəffaf olmayan Heydər Əliyev Fondu hesabına Strasburqdakı və Luvrdakı kafedralın bərpası üçün işlər görür və

hökümət insan hüquqları məsələlərində tənqiddən qorunmaq üçün Brüsseldə və Strasburqda lobbi təşkilatlarının şəbəkəsini qurur(Abbasov,2014).

Azərbaycan rəhbərliyi ən demokratik təsisatlardan biri olan lobbicilikdən qeyr-demokratik məqsədlərə nail olmaq üçün geniş şəkildə istifadə etmişdir. Bol neft gəlirlərinə çıxışı ilə əlində olan təsir vasitələrindən istifadə edərək, hökümət özünə dəstək üçün pulları lobbi şirkətlərinə, bərpa layihələrinə,mədəni tədbirlərə,böyük konfranslara ev sahibliyinə və parlamentarların və keçmiş nüfuzlu siyasətçilərin və Nobel laureatların səfərlərinə səpələmişdir. 2015-ci ildə Azərbycan ilk Avropa oyunlarına ev sahibliyi etmiş və xəbərlərə görə 8milyard dollar civarında bu idman tədbirinə pul sərf etmişdir.

Lobbiçilik fəaliyyətləri və korrupsiya çox zaman bir-birinin sərhədlərini örtmüşdür. ESİ-nin hesabatı, Avropa Şurasının hərəkətsizliyi Azərbaycan rəhbərliyini seçkiləri necə saxtalaşdırmağa ruhlandırdığını və insan hüquqlarını pozduğunu və onun "kürü diplomatiyasının", insan hüquqları,demokratiya və qanun aliliyi təşviq etmək üçün yaradılan Avropa təsisatlarını necə susmağa kömək etdiyini göstərmişdir[26].

ABŞ-da sadəcə 2014-də ABŞ lobbiçilik fəaliyyətlərinə 4milyon dollar sərf etmişdir[27].

Azərbaycan Şahdəniz qaz yatağının operatoru BP, sanksiya qoymaq kənara dursun,2014 repressiyalarından sonra da Azərbaycanda konstruktiv əməkdaşlıq siyasətini davam etdirmişdir. 2015-ci ilin martın 25-də AB-nin Azərbaycandakı nümayəndəliyin rəhbəri Malena Mard AB-ə vizanı sadələşdimək sahəsində və enerji sektorunda əməkdaşlıqla bağlı Azərbaycan-AB münasibətlərində baş verən irəliləyişi vurğulamış,lakin demokratiyaya keçidlə bağlı "narahatlıq doğuran məsələləri" dilə gətirmişdir. Nümayəndə heyətinin rəhbəri bildirmişdir ki,2014-2017-ci illərdə AB təhsil,kənd təsərrüfatı və ədliyyə sahəsində islahatlar üçün Azərbaycana 94milyon Euro ayırmağı planlayır[28].Nəzərə almaq lazımdır ki,repressiyalar üçün hüquq sistemi əsas alət kimi istifadə edilərək mülki cəmiyyətə,jurnalistlərə və siyasi fəallara qarşı ən dağıdıcı repressiya AQS -ə üzvlüyün 10 illiyində baş vermişdir və bunun çərçivəsində AB özünün Avropa Qonşuluq Aləti --Büdcə Dəstəyi vasitəsilə Azərbaycanda hüquqi islahatlarına milyonlarla euro sərf etmişdir.

2014-cü ildə qəti və dağıdıcı repressiylardan sonra,Azərbaycandakı mənbələrin verdiyi xəbərlərə görə AB-nin insan hüquqları üzrə xüsusi nümayəndəsi Stavros Lambrinidisin 2015-ci ilin Fevralında Bakıya səfəri zamanı Məhkəmə Hüquq Şurasının məhkəmə

[26] " Caviar Diplomacy. How Azerbaijan Silenced Council of Europe" ESI, 2012.
[27] Lozovsky, Ilia, How Azerbaijan and Its Lobby Spin the Congress?, Foreign Policy, June 1, 2015.
[28] "EU believes there is still civil society in Azerbaijan to cooperate with", Turan news agency, 01.14.15 Baku.

sisteminə özünüidarəetmə verdiyinə görə onun rolunu yüksək qiymətləndirmişdir[29] və həmçinin insan hüquqları sahəsində hüquqi islahatları aparılmasının əhəmiyyətinin altını çizmiş və "bu sahədəki müsbət nəticələri tərifləmişdir". Human Rights Watch qeyd etmişdir ki. Lambrinidis öz səfəri zamanı repressiyalarla bağlı narahatlığı açıq ifadə etməmiş və ədalətsiz yolla həbs edilmiş insan hüquqları müdafiəçilərinin,jurnalistlərin və siyasi fəalların azad edilməsinə çağırmamışdır[30].

Bunun fonunda və Beynəlxalq QHT-lər və insan hüquqları şəbəkələrinin çağırışlarını qulaqardına vuraraq,Azərbaycan məhkəmələri beynəlxalq səviyyədə məşhur olan QHT fəallarını qurama ittihamlarla ən yüksək müddətlərə həbsə almışdır.

Azərbaycan rəhbərliyinin Avropanın çoxtərəfli və daxildəki təsisatlarına bu cür fəal təsir etmək cəhdləri üzə çıxan "tərəfdaşlıq" proqramının qarşılıqlı təsir təbiətinə malik olduğunu nümayiş etdirir, nəinki birtərəfli və ya struktur amillərin,məsələn təsir vasitələri və ya qarşılıqlı əlaqənin sadəcə təsiri ilə.

AB-nin fərdi yanaşma vasitəsilə, yəni ölkənin fərdi "arzu və maraqlarına" görə, konstruktiv əməkdaşlıq siyasətini davam etdirməsinə hazır olması Avropa Şurasının yeni Prezidenti Donald Tuskun səfərəi zamanı təsdiq olundu. Birgə mətbuat konfransı zamanı tərəflər enerji təhlükəsizliyi və kommersiya üzrə ikitərəfli münasibətlərin gedişi ilə bağlı öz məmnuniyyətlərini bildirdilər. Tusk yaxşı idarəçilik və qanun aliliyinin əlverişli biznes mühiti üçün əhəmiyyətli olduğunu bildirdi.Şərtilik prinsipinin loqikasının əksinə olaraq,hansı ki, görünür ki,Avropa və ABŞ-la bağlı bütün təsisatların qovulmasının təbii nəticəsi ilə bağlı, Tusk daha da iddialı ikitərəfli münasibətlərə doğru aparan sazişi-Strateji ModernizasiyaTərəfdaşlıq Müqaviləsini elan etdi[31].

Beynəlxalq Münasibətlərin Soyuq Müharibədən Sonrakı Konteksti

Avropa Birliyinin Azərbaycanda demokratiyanın inkişafı ilə bağlı siyasətinin baş tutmamasının yuxarıda aparılan analizi bütün izahedici amilləri əhatə etmir. Faktiki olaraq,hələ də nəyə görə Azərbaycan hökümətinin digər başqa avtoritar liderlərdən fərqli olaraq insan hüquqlarını və başqa beynəlxalq öhdəlikləri poza bilməsinə əmin olması və çox zaman özünün daxildə hakimiyyətə olan monopoliyasını gücləndirmək

[29] Delegation of EU visits Ministry of Justice of Azerbaijan, News.az. 25 February ,2015. http://www.news.az/articles/politics/95959

[30] Reporter's Guide. 2015 European Games in Baku, Azerbaijan. 2015, Human Rights Watch.

[31] **President Aliyev notes positive developments in EU Azerbaijan partnership, 22 July 2015. Azernews, http://www.azernews.az/azerbaijan/85748.html**

məqsədilə ancaq demokratik təsisatların fasadını qurmaqla işini görmüş sayması sualları hələ də qalır.

Onun bir neçə səbəbi ola bilər. Gerald Knaus hesab edir ki,Azərbaycanın enerji təhlükəsizliyi sahəsində əhəmiyyəti təqdim edilən kimi deyil və AB siyasətinə təsir etmək üçün də kifayət etmir.O deyir ki,bu insan hüquqları təsisatlarını vecinə almamaqdır və o da Qərb ölkələrinin siyasətlərinə fikir verilməməsində önəmli rol oynayır. Ancaq, insan hüquqlarının vəziyyəti Belarusdan da daha pis vəziyyətdə olan ölkəyə daha yumşaq yanaşmanın tətbiq edilməsi onu deyir ki,münaqişəli gündəliklər bu məsələdə vacib rol oynayır.

Avropada mövcud olan digər daxili amil ondan ibarətdir ki,rəsmilər və ya məşhur siyasətçilər yarıtmaz işlərinə görə öz karyeralarında mühüm nəticələrlə üzləşmirlər. Keçmiş xarici işlər nazirləri Malkolm Rifkind və Gek Strou ilə olan qalmaqallar nəticəsində,onlar nağd pula görə özəl şirkətlərə öz xidmətlərini təklif etmişdilər,onların parlament partiyalarında üzvlüklərinin dayandırılması çox az rast gəlinən nəticələrdən biri idi[32].Parlament bu hadisədən sonra öz qaydalarını bərkitdi və keçmiş parlament üzvlərinə maaşlı lobbiçi kimi işləməyə, istefa verəndən sonra, 6 aylığa qadağan etdi[33].

Qanunsuz var-dövləti olan oliqarxlarla hətta geniş media xəbərlərindən sonra çox sayda əməkdaşlıqlar,bu işlərlə məşğul olan siyasətçilərin mənəvi və sosial izolyasiyasına aparmır.

Korrupsiya qalmaqallarına zəif ictimai reaksiya ənənəvi siyasətin aşılanma ilə qaçılmaz surətdə bağlı olduğu qavrayışı siqnalını verir. Bu kontekstdə,Qərb ictimaiyyətinin meydana gələn "qeyri adi" tendensiyalara və ya anti-isteblişment növlü siyasətçilərə ,məsələn ABŞ-da demokrat partiyasından B.Sandersə,Kanada Baş Naziri Trüdoya və ya İngiltərədə Əmək partiyasından Korbin kimi liderlərə üstünlük verməsinin tam əsası vardır.

Soyuq müharibədən sonrakı dövrün demokratik inkişaf üçün münbit şərtlər yaratdığı haqda optimist öncə-görmələrə və iddialara baxmayaraq,yeni ideologiyasızlaşdırılmış münasibətlər iki cərəyana gətirdi və onlardan heç biri demokraiyanın inkişafı üçün əlverişli deyil.

---

[32] Sir Malcolm Rifkind and Jack Straw have whip withdrawn over 'sting' BBC news 23 February 2015, http://www.bbc.co.uk/news/uk-politics-31589202.

[33] Ex-MPs banned from lobbying, By Lindsey Telford, Edward Malnick and Charles Young, The Daily Telegraph, 01.10.2015 http://www.telegraph.co.uk/news/politics/11902758/Ex-MPs-banned-from-lobbying-after-cash-for-access-scandal.html

Biri hərbi vasitələrə əl atmaqdır -ərazi iddiaları üzərində müharibələrin başlanması və ya ayrılma hərəkatları və Rusiyanın münaqişələrlə bağlı manipulyasiyaları,hansı ki, öz qonşuluğundakı ərazilərin ilhaqına qədər gətirmişdir. Daha az aydın olan başqası isə,ancaq yəqin ki,keçid dövrü yaşayan ölkələrin demokratikləşməsinə daha "zərərli" olan və uyğun olaraq Avropa və ABŞ-ın nüfuzuna zərərli olan, beynəlxalq münasibətlərin "praqmatikləşməsidir" və ya son zamanlar müşahidə olunan "geo-iqtisadiyyatın yüksəlməsi" cərəyanıdır.

Steven Szabo Almaniyanın yenidən meydana çıxmasını izləyərək, onu "ticarət dövləti olub, prioriteti öz tərəfdaşlarının siyasi vəziyyətinə yox,o cümlədən,demokratiyanın vəziyyəti və bu ölkələrdə insan haqları və əmək hüquqlarının vəziyyəti ilə əlaqədar mülahizələrlə yox, sabit iqtisadi münasibətlərə verir". Bu realizmin iqtisadi formasıdır,və geo-iqtisadiyyat adlanır və o milli iqtisadi maraqları və ya kommersiya realpolitiki Siyasi Realism ilə eyni cərgəyə qoyur və o da milli iqtisadi maraqları dövlətin xarici siyasətində son dəyər kimi qəbul edir(Szabo, 2015, s.146).

İstefa verəndən sonra,siyasətçilər davaml gəliri olan iş sahələrinə cəlb olunurlar,xüsusilə də enerji sektoruna,çünki onlar özlərinin geniş şəbəkələrindən və siyasi nüfuzundan istifadə edə bilir: çoxları-məsələn,Qerhard Şroder,Pyer Şteynbruk,Yoşka Fişer,Hans Ditrix Genşer neft,qaz və məsləhətçi şirkətlərinə cəlb olundular.Sonuncunun yaratdığı məsləhətçi firması Azərbaycanın da maraqlarını öz müştəriləri arasında təşviq edir. Salder-ə isnad edərək,Szabo xəbərdarlıq edir ki, geo-iqtisadi Almaniya bazar iqtisadiyyatını bazar cəmiyyətinə çevirən və bazar düşüncəsi ilə ictimai həyatı mənəvi arqumentdən azad edən qlobal mənəvi siyasi dilemmanın irəli getmiş halıdır və geo-siyasət,siyasətə dəyər əsaslı yanaşmanı sarsıdan tendensiyaya malikdir.

Britaniya jurnallarının birində gedən redaksiya yazısı qeyd etdiyi kimi:"Etik xarici siyasət həmişə səmada olan torta bənzəyir,lakin bizim diplomatların satıcılara çevrilməsini və xarici siyasətin səmərəli şəkildə ən yüksək qiyməti təklif edənə auksiondan satılmasını görməkdə heç nə dəyişməyib[34]".

Müasir beynəlxalq münasibətlərin praqmatik reallığı keçmiş sovet liderləri,məsələn Heydər Əliyev tərəfindən tez başa düşüldü və səmərəli şəkildə istifadə olundu və o enerji maraqlarından əsas vasitə və siyasi alət kimi təcrübəli şəkildə hakimiyyətin gücləndirilməsində istifadə etdi və demokratik Qərbin əsas oyunçularını öz müttəfiqi kimi cəlb etdi(Aliyeva,2001).Oxşar yolla,AB inteqrasiya motivasiyası olmayan başqa iki

[34] Allies, not friends. The Spectator, 17 October 2015, p.5, www.spectator.co.uk

dövlətin liderləri ya təhlükəsizlik,ya da alternativ gücdən istifadə edərək həm daxildə, və həm də beynəlxalq səviyyədə öz manevr imkanlarını genişləndirdilər.

Ticarət qarşılıqlı asılılığına hesablanmış praqmatik qazanclar münasibətləri, başqa gündəmləri üstələyirsə ,o zaman dəyər əsaslı yanaşma sarsılacaq. Bu çox aydın şəkildə Rusiya timsalında nümayiş etdirildi və onun AB ilə münasibətləri daha çox praqmatizm ilə xaraketrizə olundu,yəni assimmetrik enerji qarşılıqlı asılılığı və AB-nin təhlükəsizlik və sabitlik maraqları üzərində (Hughes,2006).

Azərbaycanın timsalında,enerji maraqları kimi beynəlxalq münasibətlərin aparıcı elementinin praqmatik təbiət, Avropalaşma amillərinin gücünə təsir edir-təsir və qarşılıqlı əlaqə- və nəticədə kompromis edilmiş dəyərlər və standardlar vasitəsilə demokratik praktikalar və idarəçiliyə yanaşma. Heydər Əliyevin məşhur "neft diplomatiyası" və oğlu tərəfindən nəqliyyat və qaz sahəsində davam etdirilən bu diplomatiya "praqmatizmin" beynəlxalq münasibətlərdə yeri haqqında bilgi və qavrayış əsasında və bölgədə iqtisadiyyatın dünya müharibəsindən sonrakı artan rolu üzərində qurulmuşdur.

Yekun müddəalar

AB –nin Şərq Tərəfdaşlığında dəyişdirici gücünun qismən uğuru,beləliklə AB ilə onun qonşuları arasında rəsmi çoxtərəfli proqram və konsepsiyaların çərçivələri daxilində və xaricində birləşmiş, qarşılıqlı əlaqənin nəticəsidir.

Xüsusilə,son on il ərzindəki ikitərəfli AB-Azərbaycan münasibətləri və AB siyasəti çərçivəsindəki münasibətlər göstərdi ki,demokratiyanın inkişaf səmərəliliyi qarşılıqlı əlaqə prosesinin nəticəsidir və ona daha geniş kontektstin,məsələn,cəmiyyətə edilən yardımın və seçkilərin qiymətləndirilməsinin və beynəlxalq münasibətlərin dəyişən təbiətininn böyük təsiri vardır[35].

Bakıya səfər etmiş AB nümayəndə heyətinin web sitesi bəyan edir ki,"Birlik insan hüquqları və demokratiyaya dəstəyi özünün xarici əlaqələr siyasətinin əsas məsələsinə çevirmişdir".

[35]EU delegation to Baku, Azerbaijan official website.
http://eeas.europa.eu/delegations/azerbaijan/key_eu_policies/human_rights/index_en.htm

Lakin,Azərbaycanın AB-ə uğursuz inteqrasiya tarixi AB-nin alternativ gündəmlərinin bölqədəki alternativ güclə birləşməsinin qarşılıqlı əlaqə və təsir vasitəsinə necə təsir etdiyini və siyasi sistemin açılmasına yox, avtokratik cərəyanların güclənməsinə necə apardığını izləməyə imkan verir[36].

2015-ci ilə qədər AB-nin iki ardıcıl siyasət çərçivəsində yer almasına baxmayaraq, Azərbaycandakı siyasi dustaqların sayı Belarus və Rusiyadakıların sayından iki dəfə artıqdır və bu da beynəlxalq təşkilatları sanksiya qoymağa sürükləyir.

AB-i öz tərəfdaşının verilən idarəçilik nümunəsinə müqavimət göstərməsi ilə üzləşərək, Assosiativ Üzvlük sazişini kənara qoydu və Azərbaycanın təşəbbüsü ilə razılaşdı və münasibətləri inteqrasiyadan əməkdaşlığa endirdi. Bu yazı tərəflərin bu gündəmə necə gəldiklərini göstərməyə çalışdı,burada tərəflər demokratiya və islahatların genişlənməsi üzərində yox,əsil maraqlar üzərində kökləndilər.

Bu prosesdə,rəsmi proqram və siyasətlərin çərçivəsində, məsələn,AQS və ŞT daxilində, qarşılıqlı əlaqənin nəticəsi bötüvlükdə hökm sürən "realist" gündəliyin təsirinə məruz qalmışdır və bu təsirlər bu proqramların daxili və xarici kontekstində ifadə olunmuşdur – bundan əlavə strategiya konsepsiyasındakı qeyri ardıcıllıq,mövcud vasitələrin tətbiqi və seçkilər kimi bu cür təsisatların standardlarının aşağı salınması bu təsirə məruz qalmışdır.

AB –Rusiya münasibətlərində olduğu kimi, AB-nin Xəzər resurslarında marağını və Azərbaycanın AB-nin enerji təhlükəsizliyində rolunu nəzərə alsaq, şərtilik əsasındakı münasibətlər nəinki ortadan qalxmış,hətta dəyişmişdir. Bu Azərbaycan prezidentinin "bərabər tərəfdaşlıq" haqqında ardıcıl bəyənatlarını izah edir.

Beynəlxalq münasibətlərdə ümumi tendensiya-geo-iqtisadiyyatın vüsət alması AB qonşuluğunda yerləşən keçid dövrü yaşayan ölkələrdə əsas demokratik subyektlərin dəyər əsaslı yanaşmasını sarsıdır və beləliklə bu ərazini başqa fərqli təsir dairələrinin predmetinə çevirir. Şərq timsalında, Rusiyanın,İranın və Yaxın Şərqin mövcudluğu, daha kiçik dövlətlərə öz islahat potensiallarını həyata keçirməyə mane olur.

Praqmatizm və ya münasibətlərin iqtisadi tərkib hissələrinin prioritetləşdirilməsinin iş sahəsindəki yarıtmazlıqların nəticəsiz qalması ilə birləşməsi, AB-nin subyekt kimi başlıca əlavə dəyərinin ardıcıl şəkildə aşılanmasına gətirir,onun qonşuluğunda demokratiya standardlarının aşağı düşməsi ilə nəticələnir və beləliklə özünü həmən eyni pisləşən standardların təhlükəsi altına qoyur.

[36] Video interview with the president of the Freedom House Marc Lagon, RFE/RL 05.08.2015, http://www.azadliq.org/media/video/27171780.html

Mənbələr

Abbasov, Shahin (2014) "The Energy and Geopolitical Interests of the EU in Azerbaijan and problems with Democracy: Factors Influencing Decision Making" *in Alieva, Leila (ed) Oil Factor in Conflict and Democracy Deficit in Azerbaijan, Kazakhstan and Russia.* CNIS, Baku. http://www.youblisher.com/p/1042955-OIL-FACTOR-IN-CONFLICT-AND-DEMOCRACY-DEFICIT-IN-AZERBAIJAN-KAZAKHSTAN-AND-RUSSIA/

Abbasov, Tural (2015) "Azerbaijan and Eastern Partnership Relations: Current Trends" in *Trouble in Neighborhood? The Future of Eastern Partnership.* Ed. Hug, Adam, Foreign Policy Institute.

Alieva, Leila (2000) "Leadership Assets and Foreign Policy Strategies in the South Caucasus" BPSC Working Paper, Winter, UC Berkeley.

Alieva, Leila (2006) "Integrative Processes in the South Caucasus and Their Security Implications" NDC, Rome.

Alieva, Leila (2005) "EU and the South Caucasus" Occasional Paper, CAP/ Berthelsmann Foundation.

Alieva, Leila (2014) "The impact of lack of democratization on the EU-Azerbaijan relations"

Alieva, Leila (2013) co-authored with Kobzova. EU-Azerbaijan-Beyond Oil

Beyond Colors: Assets and Liabilities of the Post-Orange Ukraine. (2010) Stefan Batory Foundation (Warsaw), International Renaissance Foundation (Kiev).

Bedford, Sofie (2014) "Political Mobilization in Azerbaijan-The January 2013 Protests and Beyond" in *Demokratizatsiya. The Journal of Post-Soviet Democratization.* Vol. 22.No.1, Winter, pp. 2-15

Bermeo, Nancy (2010) Democracy Assistance and the Search for Security in *New Challenges to Democratization* ed. by Burnell, Peter and Youngs, Richard Routledge, London-New York, PP.73-93.

Boonstra, Jos , Delcour, Laure (2015), A Broken Region: Evaluating of the EU Policies in the South Caucasus. Policy Brief, CASCADE-FRIDE, n.193. January 2015.

Bunce, Valerie, Wolchik, Sharon (2006) International Diffusion and Post-Communist Electoral Revolutions" in *Communist and Post-Communist Studies,* 39, No.3, September, pp.283-304 (Special issue on Democratic Revolutions in the Post-Communist Space)

Bunce, Valerie, Wolchik, Sharon (2011) Defeating Authoritarian Leaders in Post-Communist Countries. Cambridge Studies in Contentious Politics. Cambridge University Press.

"Caviar Diplomacy. How Azerbaijan silenced the Council of Europe" (2013) European Stability Initiative, Berlin-Brussels-Istanbul.

Carothers, Thomas (1996) Assessing Democracy Assistance. The Case of Romania. Carnegie Endowment Book.

Carothers, Thomas (1999) Aiding Democracy Abroad: The Learning Curve. Carnegie Endowment for International Piece.

Carothers, Thomas (2006) Promoting the Rule of Law Abroad: In Search of Knowledge. Carnegie Endowment for International Piece.

Cooper, Robert. (2004) The Breaking of Nations: Order and Chaos in the 21st Century. Atlantic Books, London.

Delcoure, Laure, Wolzcuk, Katarina (2015) "The EU's Unexpected "Ideal Neighbor"? The Perplexing Case of Armenia's Europeanization" in Journal of European Integration, 2015.

Delcour, Laure, Kataryna Wolczuk (2015) Spoiler or Facilitator of Democratization? Russia's role in Georgia and Ukraine. In *Demokratization N.3*

Deudney, David, Ikenberry, John G. (1991-2) "The International Sources of Soviet Change" in International Security" Winter, Vol.16, No.3.

Diamond, Larry (2009) The Spirit of Democracy: The Struggle to Build Free Societies Throughout the World. Times Books, New York.

Feliu, Laura, Serra, Francesca (2015) "The EU as a Normative Power" in Stavridis, Stelios, Irrera, Daniela eds. *The European Parliament and Its International Relation**s.*** Routledge.

Freudenstein, Roland (2014) Facing UP to the Bear: Confronting Putin's Russia. In *European View. Europe's Defining Challenges*, Wilfried Martens Center for European Studies, Springer, Volume 13, No. 2, December, pp.225-233.

Freyburg, Tina (2012) "Planting Seeds of Change Inside? Functional Cooperation with Authoritarian Regimes and Socialization into Democratic Governance" in *World Political Science Review,* Vol.8,N.1, 1-45.

Geybullayeva, Arzu (2015) Does Advocacy Matter in Dealing with Authoritarian Regimes? In *Caucasus Analytical Digest* No. 70, 26 February.

Gramazio, Francesca et al. (2011) "BP lobbying Europe" ESCP Europe, MEB 2010/2011.

Humphreys, Macartan, Sachs, Feffrey D, Stiglits, Joseph E. (2007) "Escaping the Resource Curse." Columbia University Press.

Hug, Adam (2015) "Trouble in the Neighborhood? The future of the EU's Eastern Partnership: Introduction". In *Trouble in the Neighborhood* ed. By Hug, Adam, The Foreign Policy Center.

Hughes, James (2006) "EU relations with Russia: partnership or asymmetric interdependency?" in Casarini, N. and Muzu, C. (eds) *The EU Foreign Policy in an Evolving International System: The Road to Convergence,* London UK, Palgrave.

Junemann, Annette (2002) "From the Bottom to the Top: Civil Society and Transnational NGOs in the Euro-Mediterranean Partnership" in *Democratization* 9(1), 87-105.

Knaus, Gerald (2015) "EU and Azerbaijan: End of Shame" in *Journal of Democracy, July,* Vol. 26, N.3.pp.5-18.

Kamrava, Mehran (2010) "Preserving Non-Democracies. Leaders and State Institutions in the Middle East" in *Journal of Middle Eastern Studies,* Vol.46, No.2, March. PP.251-270.

Karl, Terry Lynn (1997) The Paradox of Plenty: Oil Booms and Petro-states. University of California Press.

Kodmani, Basma (2010) Resistance to Democracy Promotion in the Middle East. In *New Challenges to Democratization* ed. by Burnell, Peter and Youngs, Richard, Routledge,

London-New York, pp.153-171

Levitsky, Steven, Way, Lucan (2014) "Structure vs Choice"in *Journal of Democracy,* Vol.25, No.4. October.

Levitsky, Steven, and Way, Lucan (2012) Democracy and a Level Playing Field in Stewart, Susan, Klein Margaret, Schmitz, Andrea, Schroeder, Hanz- Henning (eds) , Presidents, Oligarchs and Bureaucrats. Forms of Rule in the Post-Soviet Space. SWP, ASHGATE PP.29-43.

Luttwak, Edward (1990) "From Geo-politics to Geo-economics" in *National Interest,* No.17, Summer.

Lorot, Pascal (1999) "Introduction a la geoeconomie", Paris, Economica (quoted in Aligica "Geo-economics")

Lussac, Samuel (2010) "The State as an (Oil) Company? The Political Economy of Azerbaijan." Science Po, Bordeaux, Garnet Working Paper, No.74/10, February.

Mammadli, Anar (2013) "Elections in Post-Soviet Azerbaijan" *in Alieva, Leila (ed) The Soviet Legacies 22 Years On: Reversed or Reinforced?* CNIS, Qanun, Baku.

McFall, Michael, Magen, Amichai, Stoner-Weiss Kathryn (2008). Evaluating International Influences on Democratic Transitions. Concept Paper, CDDRL, Stanford University.

Marriott, James and Minio-Paluello, Mika (2012) The Oil Road. Journeys from the Caspian Sea to the city of London. Verso. London-New York.

Nikolayenko, Olena (2015) "Do Contentious Elections Depress Turnout?" in Norris, Pippa, Frank, Richard W, Martinez I Coma, Ferran (eds) Contentious Elections from Ballots to Barricades" Routledge. 25-45.

Nodia, Ghia (2014) "The Reverence of Geopolitics" in *Journal of Democracy ,* Volume 25, Number 4., October issue.

Pierce, Katy E. (2015) The Best Defense is a Good Offense: The Role of Social Media in the Current Crackdown in Azerbaijan" in *Caucasus Analytical Digest.*

Pridham, Geoffrey eds. (1991) Encouraging Democracy: International Context in the Regime Transition in the Southern Europe.

Pridham, Geoffrey (2005) Designing Democracy: EU Enlargement and Regime Change

in Post-Communist Europe. Palgrave MacMillan.

Pridham, Geoffrey, Herring, Eric, Sanford, George (1997) "Building Democracy? The International Dimensions of Democratization in Eastern Europe." Revised Edition, Leicester University Press.

Pridham, Geoffrey (2001) "Re-thinking regime change theory and the international dimension of democratization:ten years after in East-Central Europe" in Pridham, Geoffrey, Agh, Attilla eds*. Prospects for Democratic Consolidation in East Central Europe.* Manchester University Press.

Raik, Kristi (2011) Between Conditionality and Engagement. Revisiting EU's Democracy Promotion in the Eastern Neighborhood. FIIA Briefing Paper 80, April, 2011.

Ross, Michael L. (2001) Does Oil Hinder Democracy? In World Politics, 53, April. PP.321-366.

Ross, Michael L (2012) The Oil Curse: How Petroleum Wealth Shapes the Development of Nations. Prinston University Press.

Sandel, Michael J. (2012) " What Isn't for Sale?" in *The Atlantic* February 27.

Shapovalova, Natalia, Youngs, Richard (2012) "European Democracy Promotion in the Eastern Neighborhood: Turn to Civil Society?" FRIDE, Working Paper 115.

Simao, Licinia (2011) "EU-South Caucasus Relations: Do Good Governance and Security Go Together?" In *Political Perspectives*, Volume 5(2), 33-57.

Solonenko, Iryna (2010) "The EU 'Transformative Power' towards Eastern Neighborhood : The Case of Ukraine. SPES working papers, Institut fur Europaische Politik, August.

Stewart, Susan (2009) eds. Democracy Promotion before and after "Color Revolutions" Routledge. (eds) Special Issue of Democratization. Vol. 16 No.4. Routledge.

Szabo, Steven (2015) Germany, Russia and the Rise of Geo-economics. London, Bloomsbury. Tamm, Sascha (2007) "Weakness as an Opportunity: the EU Policy in the South Caucasus" in *Turkish Quarterly,* Vol.6, No.3, Fall.

Toltrup, Jacob (2014) External Influences and Democratization: Gatekeepers and Linkages, in *Journal of Democracy* Vol.25, Issue 4, October.

Vachudova, Milada Anna (2005) Europe Undivided: Democracy, Leverage and Integration after Communism. Oxford University Press.

Vincent, Rebecca (2015) "No Holds Barred: Azerbaijan Unprecedented Crackdown on Human Rights" in *Caucasus Analytical Digest.*

Way, Lucan A, Levitsky, Steven (2010) "Competitive Authoritarianism: Hybrid Regimes after the Cold War" New York, Cambridge University Press.

Whitehead, Laurence eds. (1996) The International Dimension of Democratization, Oxford University Press, Oxford.

Youngs, Richard (2010) Energy: A reinforced obstacle to democratization? In *New Challenges to Democratization* ed. by Peter Burnell and Richard Youngs, Routedge, London and New York.

Youngs, Richard (2001) The European Union and the Promotion of Democracy Europe's Mediterranean and Asian Policies. Oxford Studies in Democratization. Series Editor: Lawrence Whitehead, Oxford University Press.

Youngs, Richard (2005) Engagement: Sharpening European Influence, in *New Terms of Engagement* (Global Europe Report, The Foreign Policy Center, May 2015, pp.1-14.

Zhovtis, Yevgeni (2014) "The Energy Interests of the West and Support for Democracy in the Caspian Region: Promotion of Values or "Real Politik"? *in Alieva, Leila (ed) Oil Factor in Conflict and Democracy Deficit in Azerbaijan, Kazakhstan and Russia. E-publication,* CNIS, Baku. http://www.youblisher.com/p/1042955-OIL-FACTOR-IN-CONFLICT-AND-DEMOCRACY-DEFICIT-IN-AZERBAIJAN-KAZAKHSTAN-AND-RUSSIA/